**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# “DÖVLƏT MALİYYƏSİNİN İDARƏ OLUNMASINDA FİSKAL QAYDALAR: AZƏRBAYCAN TİMSALINDA”

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**Salmanov Pərviz Oqtay oğlu**

**BAKI – 2021**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**

**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh oğlu**

**_______________________imza**

**"___" __________ 2021-ci il**

# "DÖVLƏT MALİYYƏSİNİN İDARƏ OLUNMASINDA FİSKAL QAYDALAR: AZƏRBAYCAN TİMSALINDA"

**mövzusunda**

## MAGİSTR DİSSERTASİYASI

**İxtisasın şifri və adı: 060403 - Maliyyə**

**İxtisaslaşma: Maliyyə menecmenti**

**Qrup: 644**


**Magistrant:**

**Salmanov Pərviz Oqtay oğlu**

**_______________________ imza**

**Elmi Rəhbər:**

**i.e.n. dos., Məhərrəmov Ramiz Bulut oğlu**

**_______________________ imza**

**Proqram Rəhbəri:**

**i.ü.f.d. Vəliyev Cəbrayıl Xəlil oğlu**

**_______________________ imza**

**Kafedra Müdiri:**

**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi oğlu**

**_______________________ imza**


**BAKI - 2021**

## Elm andı

Mən, Salmanov Pərviz Oqtay oğlu and içirəm ki, "Dövlət maliyyəsinin idarə olunmasında fiskal qaydalar: Azərbaycan timsalında" mövzusunda magistr dissertasiyasını elmi əxlaq normalarına və istinad qaydalarına tam riayət etməklə və istifadə etdiyim bütün mənbələri ədəbiyyat siyahısında əks etdirməklə yazmışam.

**“DÖVLƏT MALİYYƏSİNİN İDARƏ OLUNMASINDA FİSKAL QAYDALAR: AZƏRBAYCAN TİMSALINDA”**


## XÜLASƏ

**Tədqiqatın aktuallığı: Dövlət maliyyəsinin idarə edilməsi fiskal qaydaların müdaxilə səviyyəsi ilə müəyyənləşdirilir. Bu prosesin maliyyə mexanizmləri və üsulları ilə gerçəkləşdirilməsi imkanlarına yiyələnmək, cəmiyyətin idarə olunmasında hər bir maliyyə vasitəçisinin və maliyyə vasitəsinin rolunu öyrənməklə və maliyyə mexanizmlərinin, o cümlədən vergilərin, fondların və s. mahiyyətini araşdırmaq, onların vasitəsilə istehsalın səmərəsinin artmasına fəal təsir bacarığına yiyələnmək mümkündür. Bu baxımdan tədqiqat işi mövzusunun aktual mövzulardan birinə həsr olunduğunu söyləmək olar.**

**Tədqiqatın məqsədi: Tədqiqatın əsas məqsədi Azərbaycanda dövlət maliyyəsinin idarə olunmasında fiskal qaydaların təminatlılığının təkmilləşdirilməsi və bu sahədə mövcud olan problemlərin müəyyənləşdirilərək aradan qaldırılmasından ibarətdir.**

**İstifadə olunmuş tədqiqat metodları: Tədqiqatın aparılması zamanı sistemli və müqayisəli təhlil, məntiqi ümumiləşdirmə və qruplaşdırma metodlarından istifadə edilmişdir.**

**Tədqiqatın informasiya bazası: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin, həmçinin tədqiqat mövzusuna dair ölkəmizdə və xaricdə nəşr olunan elmi əsərlər, elmi-praktiki konfransların materialları, internet resursları istifadə edilmişdir.**

**Tədqiqatın məhdudiyyətləri: Tədqiqat işi ilə bağlı əsas məhdudiyyət fiskal siyasətin tədqiqi ilə bağlı kifayət qədər ədəbiyyatın olmamasıdır.**

**Tədqiqatın elmi yeniliyi və praktiki nəticələri: Praktiki araşdırmalar əsasında belə nəticəyə gəlmək olur ki, Azərbaycan Respublikasında fiskal siyasət uğurla həyata keçirilir. Eyni zamanda ölkəmizdə dövlət maliyyəsinin səmərəli idarə olunmasının nəticələrini statistik göstəricilərdən də görmək mümükündür.**

**Nəticələrin istifadə oluna biləcəyi sahələr: Tədqiqatın nəticələrindən, tələbələr, bu sahəylə maraqlanan şəxslər, dövlət orqanları tərəfindən fiskal qaydaların təkmilləşdirilməsində istifadə oluna bilər.**



***Açar sözlər: dövlət maliyyəsi, fiskal qaydalar, idarə olunma, iqtisadi inkişaf***

**“FISCAL RULES IN PUBLIC FINANCE MANAGEMENT: IN THE EXAMPLE OF AZERBAIJAN”**

## SUMMARY

**Relevance of the study: Fiscal regulation helps us to manage the public finance through the tax, government spending, transfers and etc. From that point government should find a balance between its income and spending.**

**The purpose of the study: The main purpose of the study is to improve the provision of fiscal rules in the management of public finances in Azerbaijan and to identify and eliminate existing problems in this area.**

**Research methods used: Systematic and comparative analysis, logical generalization and grouping methods were used during the research.**

**Research database: The State Statistics Committee of the Republic of Azerbaijan, the Ministry of Economy of the Republic of Azerbaijan, the Ministry of Finance of the Republic of Azerbaijan, as well as scientific works published in our country and abroad, materials of scientific-practical conferences, internet resources were used.**

**Limitations of the study: The main limitation of the research is the lack of sufficient literature on the study of fiscal policy.**

**Scientific novelty and practical results of the research: On the basis of practical research, it can be concluded that fiscal policy is successfully implemented in the Republic of Azerbaijan. At the same time, the results of effective management of public finances in our country can be seen in the statistics.**

**Areas where the results can be used: The results of the research can be used by students and those interested in the field, and the results can be used to improve fiscal regulations.**

***Keywords: public finance, fiscal rules, governance, economic development***

## M Ü N D Ə R İ C A T

**GİRİŞ………………………………………………………………...7**

**I FƏSİL. DÖVLƏT MALİYYƏSİNİN İDARƏ OLUNMASINDA FİSKAL QAYDALARIN TƏŞKİLİNİN NƏZƏRİ-METODOLOJİ ƏSASLARI.........10**

1.1. Dövlət maliyyəsinin təşkilinin nəzəri əsasları ................................... ...10

1.2. Fiskal qaydaların iqtisadi mahiyyəti..................................................... 17

1.3. Dövlət maliyyəsinin idarə olunmasında fiskal qaydaların əsas vəzifələri.....................................................................................................27

**II FƏSİL: DÖVLƏT MALİYYƏSİNİN İDARƏ OLUNMASINDA FİSKAL QAYDALARIN TƏŞKİLİNİN MÖVCUD VƏZİYYƏTİNİN TƏHLİLİ...................................................................................................32**

2.1. Azərbaycan Respublikasında dövlət maliyyəsinin təşkilində fiskal siyasətin normativ-hüquqi bazası.................................................................32

2.2. Dövlət maliyyəsinin idarə olunmasında fiskal üsulların təsirinin qiymətləndirilməsi.............................................................................................45

**III FƏSİL: DÖVLƏT MALİYYƏSİNİN İDARƏ OLUNMASINDA FİSKAL QAYDALARIN TƏŞKİLİNİN İNKİŞAF İSTİQAMƏTLƏRİ........52**

3.1. Fiskal idarəetmənin dövlət maliyyəsinə təsirinin proqnozlaşdırılması..52

3.2. Dövlət maliyyəsinin idarə olunmasında fiskal siyasətin həyata keçirilməsi üzrə nəzarətin gücləndirilməsi istiqamətləri..............................61

3.3. Azərbaycan Respublikasında dövlət büdcəsinin təsnifatlaşmasında fiskalqaydaların təkmilləşdirilməsi.......................................................................65

**NƏTİCƏ VƏ TƏKLİFLƏR**.......................................................................76

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI**.................................... .80

Sxemlərin siyahısı.........................................................................................83

Cədvəllərin siyahısı.......................................................................................83

Şəkillərin siyahısı...........................................................................................83

# GİRİŞ

**Mövzunun aktuallığı.** Müasir iqtisadi şəraitdə ümumi milli məhsulun müxtəlif elementlər, sahələr və regionlar arasında bölüşdürülməsi mexanizmini, ümumi qanunauyğunluqlarını, kəmiyyət və keyfiyyət göstəricilərini müəyyən etmək, bölgü prosesində dövlətin maliyyə vasitəçiliyinin mahiyyətini anlamaq mühüm əhəmiyyət kəsb edən iqtisadi məsələlərdəndir.

Adətən dövlət maliyyəsinin predmeti cəmiyyətin müasir inkişaf xüsusiyyətlərinə uyğun olaraq müəyyənləşdirilir və fiskal qaydaların bütün iqtisadi formasiyalarını özündə əks etdirir. Bu istiqamətdə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli fərmanı ilə təsdiq edilmiş "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsi"ni, həmçinin hər növbəti il üçün təsdiq edilən dövlət büdcəsi haqqında qanunları xüsusilə qeyd etmək olar. Aparılan islahatların ardıcıl həyata keçirilməsi iqtisadiyyatın bütün sahələrində, o cümlədən dövlət maliyyəsinin resurslardan səmərəli istifadə edilməsi imkanlarının reallaşdırılması ilə sıx bağlıdır.

Qeyd etmək lazımdır ki, bazar iqtisadiyyatı şəraitində fiskal qaydalar dövlət maliyyə sisteminin formalaşmasına xidmət edən sistemli şəkildə həyata keçirilən makroiqtisadi sabitliyə nail olmağa yönəldilmişdir. Makroiqtisadi sabitliyin əldə olunmasında çevik və məqsədyönlü idarəetmənin aparılması həlledici rol oynayır. İlk növbədə, məhz büdcə-vergi münasibətlərinin tarazlaşdırılmış şəkildə aparılması ölkədə makroiqtisadi sabitliyin vəziyyətinə həlledici təsir göstərir.

Ölkə iqtisadiyyatının sabitləşməsi müasir dünyada iqtisadi inteqrasiya prosesinin sürətləndiyi və makroiqtisadi təhlükəsizliyin qorunmasının sürətləndiyi bir şəraitdə maliyyə siyasətinin, o cümlədən fiskal siyasətin təkmilləşdirilməsi və səmərəliliyin artırılması üçün geniş imkanlar yaradır.

Dövlət maliyyəsi büdcə gəlirlərinin və xərclərinin formalaşmasının kəmiyyət parametrlərinin və əsas vəzifələrinin müəyyənləşdirilməsi, dövlətin daxili və xarici borclarının idarə edilməsi üzrə dövlətin məqsədyönlü fəaliyyəti iqtisadi siyasətinin əsas alətləri kimi qiymətləndirilir.

Fiskal qaydalar dövlətin büdcə və vergi siyasəti olmaqla, büdcə formalaşması siyasətini ifadə edir və eyni zamanda, dövlət maliyyə siyasətinin tərkib hissəsi sayılır. Fiskal qaydalar məcmu tələbin, məşğulluğun və gəlirin səviyyəsinə təsir etmək üçün dövlətin xərclərdən, vergiqoymadan və borclanmadan istifadə edərək həyata keçirilən dövlət siyasətidir. Bunu vurğulamaq vacibdir ki, fiskal qaydalara dəyişiklik məcmu tələb və məcmu təklifin hər ikisinə təsir edir.

Bazar iqtisadiyyatı şəraitində inkişaf etmiş ölkələrdə fiskal qaydalar əsasən tələbin idarə olunması aləti kimi istifadə olunur. Fiskal qaydanın əsas mahiyyəti vergi dərəcələrində və dövlət xərclərində dəyişiklik etməklə məcmu tələbi stimullaşdırmaqdan ibarətdir. Məhz bu baxımdan dövlət maliyyəsinin idarə olunmasında fiskal qaydaların daima diqqətdə saxlanılması vacib iqtisadi məsələlərdəndir.

**Problemin öyrənilmə səviyyəsi.** Respublikamızda dövlət maliyyəsi və fiskal qaydaların tətbiqi ilə bağlı məsələlər A.F.Musayevin, A.Ş.Şəkərəliyevin, S.M.Məmmədovun, M.M.Sadıqovun, Ə.Ə.Ələkbərovun, B.X.Ataşovun, F.H.Yusifovun, D.Ə.Vəliyevin, Y.A.Kəlbiyevin, Z.F.Məmmədovun, R.B.Məhərrəmovun, Z.H.Rzayevin, A.A.Hüseynovun, E.B.Süleymanovun və s. əsərlərində araşdırılmışdır. Qeyd etmək lazımdır ki, dövlət maliyyə konsepsiyası, fiskal siyasət və qaydaların idarə edilməsi strategiyasının hazırlanması, hər zaman iqtisadi şəraitə uyğun olaraq yenilənməyə ehtiyac duyur və ətraflı araşdırılmaları özündə əks etdirir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin məqsədi müasir mərhələdə dövlət maliyyəsinin idarə edilməsində fiskal qaydaların təkmilləşdirilməsindən ibarətdir.

Tədqiqat işində qarşıya qoyulmuş məqsədə nail olmaq üçün aşağıdakı vəzifələri müəyyən edilmişdir:

- dövlət maliyyəsinin təşkilinin və fiskal qaydaların iqtisadi mahiyyətinin nəzəri əsaslarının və əsas vəzifələrinin araşdırılması;
- dövlət maliyyəsinin təşkilində fiskal siyasətinin rolunun müəyyən edilməsi və onun normativ-hüquqi bazasının təhlil edilməsi;

- dövlət maliyyəsinin idarə olunmasında fiskal üsulların təsirinin qiymətləndirilməsi;

- fiskal idarəetmənin dövlət maliyyəsinə təsirinin proqnozlaşdırılması;

- dövlət maliyyəsinin idarə olunmasında fiskal siyasətin həyata keçirilməsi üzrə nəzarətin gücləndirilməsi istiqamətlərinin müəyyən edilməsi;

- Azərbaycan Respublikasında dövlət büdcəsinin təsnifatlaşmasında fiskal qaydaların təkmilləşdirilməsi.

**Tədqiqatın predmeti.** Tədqiqat işinin predmetini Azərbaycan Respublikasının dövlət maliyyəsinin idarə olunmasında fiskal siyasətdən və fiskal qaydalardan səmərəli istifadə mexanizmləri təşkil edir.

**Tədqiqatın obyekti.** Tədqiqatın obyekti Azərbaycan Respublikasının dövlət maliyyəsi və büdcə-vergi sistemidir.

**Tədqiqat metodları**. Tədqiqatda sistemli və müqayisəli təhlil, məntiqi ümumiləşdirmə və qruplaşdırma metodlarından istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazası.** Dissertasiya işində Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin, həmçinin tədqiqat mövzusuna dair ölkəmizdə və xaricdə nəşr olunan elmi əsərlər, elmi-praktiki konfransların materialları, internet resursları istifadə edilmişdir.

**Nəticələrin elmi-praktiki əhəmiyyət**i. Dissertasiyanın elmi-praktiki əhəmiyyəti aparılan araşdırmalar, təhlillər, müqayisələr, eləcə də işin yazılması zamanı dövlət maliyyəsinin və fiskal qaydaların iqtisadiyyatın digər sahələri ilə əlaqəsinin müəyyən edilməsindən və bu araşdırmalardan digər tədqiqat işlərində istifadə edilməsindən ibarətdir.

# I FƏSİL.
# DÖVLƏT MALİYYƏSİNİN İDARƏ OLUNMASINDA FİSKAL

## QAYDALARIN TƏŞKİLİNİN NƏZƏRİ-METODOLOJİ ƏSASLARI.

### 1.1. Dövlət maliyyəsinin təşkilinin nəzəri əsasları.

Qloballaşan dünyaya Azərbaycan Respublikasının da inteqrasiya etməsi dövlət maliyyəsinin yeni predmetini işlənilməsi zərurətini meydana çıxartdı. Belə ki, bu zaman ölkəmizdə də müasir tələblərə cavab verən ümumi milli məhsul, milli gəlir, pul fondlarının və gəlirlərin təkmilləşdirilməsi ilə əlaqədar yeni iqtisadi münasibətlər sistemi yaradıldı.

Bazar iqtisadiyyatı şəraitində dövlət maliyyənin predmetinin öyrənilməsi zamanı əsasən dialektik metoddan istifadə olunur. Bu metod vasitəsilə hadisələrin və proseslərin inkişafının qarşılıqlı əlaqəsi öyrənilir. Dövlət maliyyəsi həm kəmiyyət, həm də keyfiyyətcə inkişaf edir. Dövlət maliyyəsinin kəmiyyətcə inkişafı maliyyə vəsaitlərinin hərəkətini özündə əks etdirir, keyfiyyətcə inkişaf isə maliyyə münasibətlərinin daim təkmilləşdirilməsini nəzərdə tutur.

Dövlət maliyyəsinin predmetini öyrənərkən qarşıya qoyulan əsas məqsəd maliyyənin mahiyyət və funksiyalarını öyrənmək, bazar iqtisadiyyatı şəraitində onların rolunu dərk etmək, müasir şəraitdə dövlət, bələdiyyə və ya biznes maliyyəsinin əhəmiyyətini müəyyənləşdirməkdir (Musayev A. F. Vergi siyasətinin iqtisadi problemləri. Bakı: 2004, 792 s.).

Ümumi milli məhsulun müxtəlif elementləri paytaxt, regionlar və sahələr arasında bölüşdürülməsi mexanizmi ciddi şəkildə tədqiq edilməlidir. Bu zaman ümumi qanunauyğunluqlar, kəmiyyət və keyfiyyət göstəriciləri müəyyən edilməli, maliyyə vasitəçiliyinin mahiyyətini anlamaq mühüm əhəmiyyət kəsb edir. Dünya təcrübəsinə əsasən, dövlət maliyyəsi cəmiyyətin müasir inkişaf xüsusiyyətlərinə uyğun olaraq müəyyənləşdirilir. İstənilən iqtisadi vəziyyətə uyğun olaraq dövlət maliyyəsi mövcud olan özünəməxsus xüsusiyyətləri özündə əks etdirir (Thomas F. Dernburg, "Makroiktisat ve Açık Ekonomi Makroiktisadı" , İktisatça, Çev. Yahya S. Tezel, Kış 1995, s. 25).

XIII-XV əsrlərdə İtaliyanın Florensiya, Venesiya, Genuya kimi iri şəhərlərində, dövlət və əmtəə-pul münasibətlərinin meydana gəlməsi ilə əlaqədar olaraq dövlət maliyyə münasibətlərindən geniş şəkildə istifadə olunmağa başlanmışdır. Dövlət maliyyəsinin zəruriliyi dedikdə əsasən aşağıdakı amillər nəzərdə tutulur:

1. Dövlətin mövcudluğu - cəmiyyəti idarə etmək üçün dövlətin olması vacibdir. Dövlət idarəçilik, təsərrüfatçılıq, müdafiə və s. kimi çoxsaylı funksiyalar yerinə yetirir. Bu zaman idarəçilik subyekti olan dövlətin əlində müəyyən maliyyə vəsaitləri cəmləşməlidir. Hər bir dövlətin yarandığı ilk dövrlərdə həmin vəsait natural yığımlar hesabına əldə edilirdi. Orta əsrlərdən hal-hazırki müasir dövrədək cəmiyyətin təkamülü və idarəetmənin mürəkkəbləşməsi prosesində yaranan dövlət gəlirləri və xərcləri ümumilikdə dövlət maliyyəsinin əsasını təşkil etdi.

2. Cəmiyyətin inkişafı - hər bir ölkənin maliyyə münasibətlərinin göstəricisi kimi baxılır. Dövlət maliyyə münasibətlərinin inkişafı, onların mütərəqqi metodlarından istifadəsi cəmiyyətdə iqtisadi və sosial inkişafa təsir edən əsas iqtisadi elementdir. ABŞ, Fransa, Almaniya, İtaliya Yaponiya və s. bu ölkələr sırasındadır.

Lakin, müasir dünyamızda maliyyə anlayışı heç də pul münasibətlərinin hamısını əhatə etmir (F.Ə.Məmmədov, A.f.Musayev, M.M.Sadıqov, Y.A.Kəlbiyev, Z.H.Rzayev, "Vergilər və Vergitutma" . Bakı: CBS Poligraphic production, 2010, 512 s.). Pul münasibətləri daha geniş anlayışdır. Müasir iqtisadi şəraitdə istər inkişaf etmiş ölkələrdə, istərsə də inkişaf etməkdə olan ölkələrdə bir sıra pul münasibətləri fəaliyyət göstərir.

Yuxarıda söylənənlər əsasında belə nəticəyə gəlmək olar ki, dövlət maliyyəsi iqtisadi bazisin elementidir və iqtisadi kateqoriya kimi hər şeydən əvvəl o, istehsal münasibətlərinin müəyyən tərəflərinin universal və mücərrəd formada ifadəsidir. Tanınmış iqtisadçıların əsərlərində dövlət maliyyəsi bazis-in tərkibi kimi qeyd edilir. Bu da üst qurumun əsasını təşkil edərək istehsal münasibətlərinin toplusunu özündə əks etdirir.

Dövlət maliyyəsinin mahiyyətini aşağıdakı kimi xarakterizə etmək olar:

- maliyyə dəyər xarakteri daşıyır;

- ümumi milli məhsulun bölgüsünü həyata keçirir;

- pul fondlarının yaradılması ilə əlaqədardır.

Qeyd etmək lazımdır ki, maliyyə nəzəriyyəsi ilə məşğul olan iqtisadçıların heç də hamısı bu ardıcıllığa əməl etmirlər. Buna görə də funksiyaların müəyyən olunması zamanı iqtisadçıların fikirləri haçalanır.

Dünya təcrübəsi göstərir ki, dövlət maliyyəsi bütünlükdə ümumi milli məhsulun bölgüsündə aktiv şəkildə iştirak edir ( Musayev A. F. Vergi siyasətinin iqtisadi problemləri. Bakı: 2004, 792 s). Ümumilikdə isə, həm bölgü həm də nəzarət funksiyalarını özündə cəmləşdirir. Dövlət maliyyəsi eyni zamanda pul fondlarını, yığımlarını onlardan istifadə və nəzarət funksiyalarını həyata keçirdir.

Dövlət maliyyəsinin bölgü kateqoriyası qanunamüvafiq şəkildə aparılır. Yəni, dövlət maliyyə vasitəsilə ümumi milli məhsulun dəyərini bölüşdürərək onu haraya və necə paylaşdığını təmin edir, dəqiq hesabatını səmərəli və zəruri sahələrə təyinatı üzrə yönəldir. Buradan da iqtisadi qanunauyğunluqlara əsasən nəzarət funksiyasını yaranır. Buradan belə nəticəyə gəlmək olur ki, dövlət maliyyəsinin bölgü funksiyası nəzarət olmadan fəaliyyət göstərə bilməz. Qeyd olunan bu iki funksiya dövlət maliyyəsinin mahiyyətini daha dolğun və düzgün əks etdirir.

Dövlət maliyyəsinin bölgü funksiyasının əsas obyektini ümumi milli məhsul və milli gəlir bölgüsü əhatə edir. Dövlət maliyyəsinin bölgü funksiyasının subyektləri isə dövlət, müəssisələr, təşkilatlar, əhali və s. təşkil edir. Bölgü funksiyası iki mərhələdən ibarətdir:

- ilkin bölgü;

- təkrar bölgü.

İlkin bölgü müəssisələr səviyyəsində həyata keçirilir. Məhsul istehsal olunur və satılır. Satışdan daxil olan gəlir müəssisə səviyyəsində müxtəlif istiqamətlərdə bölüşdürülür. Milli məhsul ilk bölgü prosesində, milli məhsulun dəyərindən onun istehsalına sərf olunmuş material xərclərinin dəyəri çıxılır. Milli məhsulun bir hissəsi amortizasiyanın bərpasına xərclənir. Bildiyimiz kimi, amortizasiya ayırmaları əsas etibarı ilə məhsul istehsalına sərf olunmuş əsas fondların dəyərindən

ibarətdir. Nəzəriyyə və praktikadan məlumdur ki, müasir iqtisadi şəraitdə amortizasiya ayırmaları müəssisəsinin sərəncamında saxlanılır və bütövlükdə əsas fondların bərpasına yönəldilir. Material xərclərinin dəyəri də ümumilikdə müəssisənin sərəncamına əsasən, xammal, material, yanacaq və s. alınmasına sərf olunur.

Milli məhsulun yerdə qalan hissəsi - milli gəlir maliyyə vasitəsilə iki hissəyə: əməkhaqqı fonduna və xalis gəlirə bölünür. İqtisadi və təbii qanunauyğunluğa əsasən əməkhaqqı fondu əməkhaqqı formasında fəhlə və qulluqçulara verilir. Bu zaman müəyyən dövr üzrə maliyyə münasibətləri kəsilir.

Qeyd etmək lazımdır ki, əmək haqqından müvafiq vergilər və sosial sığortaya ayırmalar tutulur. Bu təsnifat koduna uyğun olaraq mərkəzləşdirilmiş fondlara, daha doğrusu dövlət büdcəsinə və pensiya fonduna yönəldilir. Bu iqtisadi əməliyyatlar zaman hələ də maliyyə münasibətləri davam etmiş olur.

Nəzəriyyə və praktikadan məlumdur ki, xalis gəlir əsasən iki hissədən: əlavə dəyər vergisi və mənfəət vergisindən ibarətdir. Əlavə dəyər vergisi bütövlükdə dövlət büdcəsinə daxil olur. Müəssisəsinin dövlət büdcəsinə ödədiyi bütün vergi daxilolmaları çıxıldıqdan sonra mənfəətin yerdə qalan hissəsi xalis mənfəət adlanır.

Gəlirlər müəssisələrin maliyyəsi və kreditlər vasitəsilə istehsal sahələrində səfərbər olunaraq hökumətlərin mərkəzləşdirilmiş fondlarına yönəldilir və yenidən bölgü yolu ilə qeyri-istehsal sahələrinin saxlanmasına istifadə olunur. Bu zaman dövlət maliyyəsinin xarakterinə uyğun olaraq sahələrarası yenidən bölgü forması regional maliyyə obyekti olmaqla ayrı-ayrı ərazilərin sosial-iqtisadi inkişaf səviyyəsini bərabərləşdirməyə yönəldilir. Təcrübə göstərir ki, ərazilərarası yenidən bölgü dövlət büdcəsi, biznes maliyyəsi, sığorta və kredit vasitəsilə həyata keçirilir. Bölgü funksiyasını maliyyənin mühüm funksiyası kimi qəbul ediriksə, deməli, vəsaitin haraya, hansı məqsədlərlə, hansı məbləğdə təyinatı üzrə yönəldildiyini bilmək üçün nəzarət mexanizmi də olmalıdır.

Dövlət maliyyəsinin nəzarət funksiyasını maliyyənin ikinci mühüm funksiyası sayılır. Dövlət maliyyəsinin nəzarət funksiyası milli iqtisadiyyatda maliyyə

nəzarətini həyata keçirir. Təbii ki, bu zaman elmi və nəzəri əsaslar ciddi şəkildə nəzərə alınır. Dövlət maliyyəsinin nəzarət funksiyası bölgü və yenidən bölgü münasibətlərini özündə cəmləşdirir. Dövlət maliyyə nəzarətinin fəaliyyət dairəsinə maddi istehsal, qeyri-istehsal sahələri və dövlət büdcəsindən istifadə daxildir.

Dövlət maliyyəsinin nəzarət funksiyasının əsas məqsədi maliyyə məsələləri üzrə qanunvericilik aktlarına əməl olunmasını, vergilərin düzgün və tam yığılmasını, xərclərin təyinatı üzrə istifadə edilməsini müəyyənləşdirməkdən ibarətdir. Dövlət maliyyəsinin nəzarət funksiyası maliyyə orqanları tərəfindən həyata keçirilir və milli iqtisadiyyatın bütün istiqamətlərini əhatə edir. Dövlət maliyyəsinin nəzarət funksiyasından kənarda heç nə qalmır (Иохин В.Я. Экономическая теория: Учеб. М.: Юристъ, 2008. 861 с. 9).

Dövlət maliyyəsi milli məhsulun bölgüsünün ən mühüm alətidir. Bu zaman isə pul vəsaiti iqtisadiyyatı idarəetmə subyektləri arasında paylaşdırılma vasitəçisidir. Bununla əlaqədar olaraq da nəzarət funksiyası yerinə yetirir. Bu zaman dövlət maliyyəsinin nəzarət funksiyası istehsalda, tədavüldə və istehlak prosesində həm birbaşa, həm də dolayısı ilə iştirak edir.

Dövlət maliyyəsi milli məhsulun bölgüsündə iştirak edir və geniş təkrar istehsalın bölgü və nəzarət funksiyaları vasitəsilə təsir göstərir. Bu təsiri iki cür qiymətləndirmək olar:

1) kəmiyyət;

2) keyfiyyət.

Kəmiyyət baxımından bölgü funksiyası ilə milli iqtisadiyyatın pul vəsaitinə tələbinin maliyyə ehtiyatlarının köməyi ilə necə ödənilməsi ilə müəyyən olunur.

Dövlət maliyyəsinin keyfiyyət təsiri birbaşa nəzarət funksiyaları ilə bağlı bir iqtisadi prosesdir. Bölgü nisbətlərinin optimal olması, maliyyə alətlərinin qurulması və nəzarətin səviyyəsi ilə müəyyən olunur. Dövlət maliyyəsinin keyfiyyət təsiri, adətən, onun kəmiyyət təsirinə uyğunlaşdırılır.

Dövlət maliyyə elmi bir sıra elmlərlə qarşılıqlı əlaqədə öyrənilir. Onun həm humanitar, həm də iqtisadi elmlərlə qarşılıqlı əlaqəsinə nəzər salaq:

*Dövlət maliyyəsi elmi ilə hüquq arasında əlaqə.* Dövlət maliyyəsi elmi dövlət hüququ və xüsusi hüquqla sıx əlaqəlidir. Dövlət hüququnun əsas sahəsi Konstitusiya hüququdur. Belə ki, vətəndaşların vergi ödəmələri ilə bağlı hüquq və vəzifələri, büdcə hüququ, büdcənin Milli Məclisdə təsdiqi və s. məsələlər Konstitusiya ilə tənzimlənir. Xüsusi hüquq sahələrinə maliyyə hüququ, əmlak hüququ, bank hüququ, vergi hüququ və s. aiddir.

*Dövlət maliyyə elmi ilə iqtisad elmi arasında əlaqə.* İqtisad elmi bütün elmlər kimi iqtisad elmi maliyyə elmi üçün də bazis rolunu oynayır.

*Dövlət maliyyəsi ilə kənd təsərrüfatı iqtisadiyyatı arasında olan əlaqə.* Qədim dünya tarixindən məlumdur ki, insanın ilk əmək fəaliyyəti kənd təsərrüfatı sahəsində olmuşdur. İbtidai insanlar öz qida və geyim ehtiyaclarını ödəmək üçün ovçuluqla, meyvə yığıcılığı, heyvandarlıq və əkinçiliklə məşğul olaraq ödəmişlər. Kimya və biologiya elmləri inkişaf etdikcə torpağın becərilməsi yeni keyfiyyət kəsb etmiş, məhsuldarlıq artmışdır. Növbəti mərhələlərdə qeyri-aqrar təsərrüfat sahələrinin, sənayenin və xidmət növlərinin inkişafında maliyyə mənbəyi kimi istifadə olunmağa başlanılmışdır. Təbii bir prosesdir ki, aqrar sferada inkişaf dövləti gəlirlə təmin edir, sənaye və xidmət sahələrini maliyyə mənbələri ilə zənginləşdirir və sənayeləşməyə güclü zəmin hazırlamış olur. Dövlət maliyyəsinin inkişafı baxımından, dövlətimiz tərəfindən kənd təsərrüfatında şaxəli və sahəvi istehsal sektorunun stimullaşmasında daima maliyyə vəsaitinin əhəmiyyətini nəzarətdə saxlayır.

*Dövlət maliyyəsi ilə əməyin iqtisadiyyatının əlaqəsi.* Məlumdur ki, əmək vətəndaşların həm hüququ, həm də borcudur. İqtisadi qanuna uyğunluğa əsasən insanlar əməkləri ilə əmtəə istehsal edir və müəyyən xidmətlər göstərirlər. Dolayısı ilə istehsal amillərini gerçəkləşdirirlər. İşçilərə ödəniləcək əmək haqqlarının öz sosial tələbatlarının ödənilməsi isə yalnız sosial risklərdən müdafiə sayəsində mümkündür. İşçilər öz hüquqlarının sahibkarlar tərəfindən pozulma ehtimalını aradan qaldırmaq üçün həmkarlar ittifaqlarını yaradırlar. Bütün bunlar iqtisad elminin diqqət mərkəzindədir.

*Dövlət maliyyəsi və siyasətşünaslıq.* İstənilən hökumətin dövlət proqramı mahiyyəti haqda bilik əldə etmək üçün həmin proqramı oxumaq vacib deyil. Hökumətin təsdiqlətdiyi büdcə, bizdə onun siyasəti haqqında lazımi təsəvvür yaradır. Buna görə deyirlər ki, büdcə iqtisadiyyatın güzgüsüdür. Təhsil, səhiyyə, müdafiə nazirliklərinin büdcələrinə nəzər salmaqla hökumətin siyasəti haqda dəqiq məlumatlar alırıq. Dövlət investisiyalarının dövlət büdcəsindəki payı dövlətin iqtisadi siyasətinin əsas tərkib hissəsidir.

*Dövlət maliyyəsi ilə statistika elmi arasında əlaqə.* Dövlət büdcəsinin gəlir və xərclərini proqnozlaşdırarkən, biznes-plan hazırlanarkən, ixrac və idxal əməliyyatları təhlil edilərkən, əhalinin sosial vəziyyəti öyrənilərkən və s. proseslərdə statistik göstəricilərdən istifadə edilir.

*Dövlət maliyyəsi ilə sosiologiya arasında əlaqə.* Sosiologiya elminin məqsədi sosial hadisələrin öyrənilməsindən ibarətdir. Sosial davranış, sosial təbəqələşmə, sosial sinifləşmə həmin hadisələrə aiddir. Bu proseslərin tənzimlənməsi isə bilavasitə maliyyə münasibətləri vasitəsi ilə həyata keçirilir.

*Dövlət maliyyəsi elminin menecmentlə qarşılıqlı əlaqəsi.* Menecment iqtisadiyyatın idarə edilməsini əhatə edir, maliyyə isə menecmentin obyekti kimi çıxış edir, həm də ona təsir edir.

Ümumiyyətlə, hər bir ölkənin optimal fiskal siyasətinin həyata keçirilməsi prioritet iqtisadi-siyasi məsələlərdəndir. Bu zaman iqtisadi islahatların həyata keçirilməsi qismində vergi dərəcələrinin dəyişməsinin sahibkarlıq mühitinə, büdcə xərclərindəki dəyişikliklərin ölkə iqtisadiyyatında inflyasiyaya və faiz dərəcələrinə, büdcə kəsirinin isə makroiqtisadi tarazlığa təsirini nəzərə almaqla icra edilməlidir.

Fiskal siyasət hər bir dövlətin büdcə mövqeyinin formalaşmasının məcmusunu özündə əks etdirir. Hər bir dövlətin fiskal siyasətinin istənilən vəziyyətdə öz iqtisadiyyatını tənzimləmə anlamına gəlmək olar. Bunun üçün fiskal siyasət zamanı məqsədli borc almağın münasib səviyyəsinin qorunub saxlanması, sabitlik və artım qaydalarına istiqamətləndirilməsi zəruri şərtlərdəndir.

Fiskal siyasət hər zaman dövlət maliyyəsi ilə qarşılıqlı əlaqədadır. Belə ki, fiskal siyasət nəticəsində hər zaman hökümət vergilərdən bir iqtisadi alət kimi

istifadə edərək dövlət xərclərini və büdcə kəsrini tənzimləyir. Dövlət müəyyən makroiqtisadi hədəflərə çatmaq üçün topladığı gəlirlərə və həyata keçirdiyi xərclərə dair qəbul etdiyi qərarlarla milli gəlir, işsizlik və inflyasiya kimi makroiqtisadi göstəriciləri tənzimləyir.

## 1.2 Fiskal qaydaların iqtisadi mahiyyəti.

Məlumdur ki, hər bir dövlətin əsas iqtisadi məqsədi fiskal siyasətin düzgün qurulmasıdır. Məhz bu baxımdan da Azərbaycan Respublikasında da makroiqtisadi tənzimləmənin əsas vasitələrindən birini fiskal siyasət təşkil edir. Dövlət orqanlarının həyata keçirdiyi fiskal siyasət, dövlət xərclərinin və vergitutma səviyyəsinin düzgün müəyyən edilməsindən ibarətdir. Fiskal siyasət - dövlət gəlirlərinin və xərclərinin köməyi ilə iqtisadiyyata təsir etmək anlamını özündə əks etdirir. İnkişaf etmiş ölkələrin təcrübəsinə əsasən vergi dərəcələrinin artırılması heç də uğurlu bir iqtisadi islahat kimi qəbul olunmur. Vergi dərəcələrinin artırılması ölkədə kölgə iqtisadiyyatının inkişafına təkan verir. Bəzi inkişaf emiş ölkələrdə büdcə xərclərinin kəskin azaldılması da fiskal siyasəti gərginləşdirən amillər kimi qeyd olunur.

Müasir iqtisadi şəraitdə iqtisadi tərəddüdlər birbaşa olaraq dövlət xərclərini və gəlirlərini dəyişməklə büdcə kəsri və ya profisiti formalaşdırır. Bu da avtomatik tənzimləyici rolunu oynayır ki, bu da fiskal siyasətinin əsas prioritet məsələlərindən sayılır. Büdcə balans vəziyyətində olduğu üçün, dövlət fiskal siyasətini elə həyata keçirməlidir ki, iqtisadiyyat enmə zolağına keçməsin və işsizlərin sayı artmasın.

Fiskal siyasətinin düzgün həyata keçirilməməsi nəticəsində ölkədə işsizliyin səviyyəsi artırır, əmək haqqları aşağı enir, vergi gəlirləri azalır və işsizlərə verilən sosial müavinətlər artır.

Fiskal siyasətin yüksəliş fazasında isə işsizlik səviyyəsi aşağı düşür, əmək haqqları yüksəlir, büdcənin vergi daxilolmaları artır və büdcədən işsizlərin sosial müdafiəsinə ayrılan xərclər azalır.

Büdcə daxilolmalarının artması, xərclərin isə azalması nəticəsində büdcədə profisit yaranır ki, bu da iqtisadiyyatın həddən artıq "hərarətlənməsini" önləyir (Prof. Doc. Cihan Pulut, Elçin Süleymanov "Dövlət Maliyyəsi", Qafqaz Universiteti Nəşri-2013, 331s.).

Fiskal siyasəti idarə etmək üçün bir sıra iqtisadi alətlərdən istifadə edilir. Bu iqtisadi alətlər mənsubluğuna görə aşağıdakı qrupa ayrılır:

1. gəlir sisteminə;
2. xərc sisteminə.

Gəlir sisteminin əsas alətləri vergiqoyma və borclanmadır. Bu alətlər iqtisadiyyata həm makro, həm də mikro səviyyədə təsir göstərirlər. Məhz bu baxımdan da qəbul edilən qərarların ölkə iqtisadiyyatına təsirləri daima təhlil edilməlidir.

Borclanma büdcə xərcləri yolu ilə məcmu tələbə, faiz dərəcəsi ilə isə məcmu təklifə təsir gücünə malik vacib fiskal alətdir. Bu baxımdan dövlət, borcların miqdarını və müddətini müəyyən edərək qarşıya qoyduğu iqtisadi məqsədlərə nail olmağa çalışır. Vergilərdə olduğu kimi borcların miqdarı da mütləq hərəkət sərbəstliyinə malik deyildir. Borclanma milli gəlirin artmasına maliyyə dəstəyi göstərsə də, dövlət borcunun həddindən artıq şişməsi yenidən borclanmaya və borcların nəzarətdən çıxmasına səbəb ola bilir. Bunun bariz nümunəsi başda Yunanıstan olmaqla, Portuqaliya, İspaniya və İtaliya kimi inkişaf etmiş Cənubi Avropa ölkələrində 2010-cu ildən etibarən müşahidə edilməkdə olan borc böhranıdır.

Xərc sisteminin əsas alətlərini isə dövlət investisiyaları və transfertər təşkil edir. Dövlət tərəfindən investisiya qoyuluşları həyata keçirilərkən əldə ediləcək qısamüddətli iqtisadi mənfəətdən daha çox, uzunmüddətli iqtisadi, siyasi və sosial məqsədlər nəzərə alınır. Bu zaman investisiyalar tələbi artıraraq tam məşğulluğa çatmaq mümkün olur. Bununla da, istehsal infrastrukturu təkmilləşir və əlverişli investisiya şəraiti yaradılır. Bu da son olaraq ölkədə özəl sektoru sərmayə qoyuluşuna rəvac verir (Брызгалина А.В. Налоги и налоговое право: Учеб.пособие. М.: «Аналитика Пресс», 2009). Başqa sözlə, dövlət tərəfindən həyata keçirilən

investisiyalar yalnız məcmu tələbi stimullaşdırmaq məqsədi daşımır, həm də biznes üçün ilkin şərait formalaşdırmaqla iqtisadiyyatın investisiya cəlbediciliyini artırmağı hədəfləyir.

Transferlərin əsas iqtisadi mahiyyəti gəlir bərabərsizliyini yumşaltmağa və əhalinin minimal həyat şəraitinin yaxşılaşmağına xidmət edir. Transfer xərcləri, eyni zamanda cari xərcləri artırmaqla milli gəliri də yüksəldir. Ancaq investisiya xərclərinin milli gəlirə təsir gücü (multiplikasiya effekti), əsasən transfertlərinkindən daha yüksək olur.

Dünya təcrübəsinə uyğun olaraq fiskal siyasətinin alətləri aşağıdakı funksiyaları yerinə yetirə bilirlər. Dünya təcrübəsində fiskal siyasətin funksiyalarını 2 qrupa bölünür.

1. Azərbaycan Respublikasında fiskal siyasətin əsas funksiyaları:

- iqtisadi resursların səmərəli paylanması;
- gəlirlərin bölgüsü və yenidən bölgüsü;
- iqtisadi sabitliyin təmin edilməsi.

2.Fiskal siyasətin alt funksiyaları:

- işsizliyin qarşısının maksimum səviyyədə alınması;
- inflyasiyanın məqbul səviyyədə saxlanmasına dəstək verilməsi;
- ölkəmizdə tədiyyə balansının tarazlığına nail olunması;
- Azərbaycan Respublikasında davamlı iqtisadi inkişafın təmin edilməsi.

Fiskal siyasət, iqtisadi resursların paylanması funksiyasını yerinə yetirməklə resursların həm dövlət və özəl sektorları, həm də iqtisadiyyatın müxtəlif sahələri arasında bölgüsünü təmin edir. Fiskal siyasətinin düzgün həyata keçirilməsinin prioritet məsələsi ölkədə iqtisadi islahatların həyata keçirilməsidir. Belə ki, dövlət investisiyalarının düzgün yönəldilməsi, dotasiya, subsidiya, subvensiya və həmçinin vergi güzəştləri kimi iqtisadi alətlər vasitəsilə iqtisadi resurslara yön verməklə iqtisadiyyatın strukturunun formalaşması vacib iqtisadi məsələlərdəndir.

Xüsusilə qeyd edək ki, ölkədə iqtisadi dayanıqlığının təmin edilməsinin ilk göstəricisi kimi gəlir bölgüsünün tənzimlənməsinin və sosial ədaləti təmin edilməsini qeyd edə bilərik. Dövlətin gəlir bölgüsünə müdaxilə etmədiyi şəraitdə

gəlirlərin bölgüsündə kəskin bərabərsizlik müşahidə edilə bilir. Bu səbəbdən dövlət, gəlirlərin yenidən bölüşdürülməsini təşkil etməklə, gəlirlərin yalnız fərdlər və qruplar arasında deyil, eyni zamanda sektorlar və bölgələr arasında bərabərsizliyini yumşaltmaq funksiyasını yerinə yetirir.

Qloballaşan dünyada bir çox hallarda dövlətlərdə iqtisadi sabitliyin tam şəkildə təmin olunması çətinliklərlə müşayiət olunur. Belə ki, dövlətlərin iqtisadiyyatı vaxtaşırı böhran və ya inflyasionist təsirlərə məruz qalırlar. Müasir iqtisadi şəraitdə dövlətlərin iqtisadi sabitliyinə təsir edən amillərin qarşısı fiskal siyasətin alətləri ilə aradan qaldırılır:

- resessiya zamanı büdcə xərcləri artırılmaqla məcmu tələb dəstəklənir;

- iqtisadiyyat "hərarətləndiyi" və inflyasiyanın yol veriləbilən həddi aşdığı dövrlərdə isə fiskal daralma siyasəti (büdcə xərclərinin azaldılması, vergilərin artırılması) həyata keçirilir.

Ümumiyyətlə, iqtisadi ədəbiyyatlarda iqtisadi sabitlik anlayışı özündə dövlətin tam məşğulluğa çatmağını, inflyasiyanın sabitliyini, tədiyyə balansının tarazlığını, davamlı iqtisadi artım və inkişafı təmin etməyi əks etdirir.

Qeyd etmək lazımdır ki, inkişaf etmiş ölkələrdə belə, iqtisadiyyatda tam məşğulluq səviyyəsini təmin etmək mümkün olmur. Hazırkı dövrdə işsizlik, az və ya çox dərəcədə, bütün ölkə iqtisadiyyatlarında müşahidə edilir (Kəlbiyev Y.A. Fiskal siyasət və milli iqtisadiyyatın tənzimlənməsi problemləri. Monoqrafiya. Bakı: 2005, 468 s.). İqtisadi ədəbiyyatlarda işsizliyin müəyyən səviyyəsi - təbii işsizlik yol verilə bilən hesab edilir ki, cari vəziyyət bu həddi aşdıqda dövlət işsizlik səviyyəsini azaltmaq üçün müəyyən tədbirlər həyata keçirir. Qısamüddətli dövrdə bunun üçün ən effektiv vasitələrdən biri, məhz dövlət xərclərinin, xüsusilə investisiya xərclərinin artırılmasıdır.

Praktikada inflyasiyanın sabitliyinin təmin edilməsi çətin iqtisadi prosesdir. Əsas səbəb kimi bu iqtisadi problem dünyada gedən qloballaşmanın məhsulu kimi göstərilir. İnflyasiyadakı dəyişikliklər dövriyyədəki pul kütləsinin və əhali gəlirlərinin artım tempi, iqtisadi resursların təklifindəki dəyişikliklər, bazardakı

rəqabət mühiti, milli valyutanın məzənnəsindəki dəyişmələr və bu qəbildən olan bir çox iqtisadi, sosial, bəzən isə həm də siyasi səbəblərdən qaynaqlanır.

Dövlət müdaxiləsi olmadan davamlı iqtisadi inkişafın təmin edilməsi çətin, bəzən hətta mümkünsüzdür. Yuxarıda sadalanan iqtisadi məsələlər fiskal siyasət alətləri vasitəsilə iqtisadiyyatın prioritet sahələrini dəstəkləyə, iqtisadi və sosial infrastrukturu yaxşılaşdırmaqla və biznes mühitini təkmilləşdirməklə yüksək investisiya aktivliyini təmin edə bilər.

Dünyanın tanınmış iqtisadçıları arasında fiskal siyasətin hansı funksiyaları yerinə yetirdiyi, daha dəqiq desək yerinə yetirməli olduğu ilə bağlı müxtəlif iqtisadi fikir məktəbləri və cərəyanları arasında fərqlər müşahidə edilməkdədir.

İqtisadi ədəbiyyatlarda fiskal siyasətin əsasında duran tarazlıq anlayışı iki yerə bölünür. Daxili tarazlıq dedikdə, inflyasiyanın sabitliyi, məşğulluğun təmin edilməsi, resursların və gəlirlərin düzgün bölüşdürülməsi nəzərdə tutulur. Xarici tarazlıq isə tədiyyə balansının tarazlığını ifadə edir.

Bazar iqtisadiyyatı şəraitində bütün iqtisadi şərtlər bazar mexanizminin özünü tənzimləməsi fərziyyəsi üzərində qurulmuşdur. Bu fərziyyəyə əsasən, bütün bazarlar tam rəqabətə yaxın bir vəziyyətdə fəaliyyət göstərir. Bu da həmin dövrün şərtlərinə yaxın idi. Bu dövrdə istehsal amillərinin və əmtəələrin qiymətləri elastik və istehsal amillərinin sektorlar arasında keçidi sərbəst idi. İxtisaslaşmanın hələ tam şəkildə formalaşmaması səbəbindən qiymət mexanizmi vasitəsi ilə həm istehsal amilləri bazarında, həm də əmtəə və xidmətlər bazarında tarazlıq əldə edilə bilirdi və hazırkı dövrdə olduğu kimi qiymətlərin və əmək haqqının qatılığı, eləcə də sektorlar arasında keçiddəki çətinliklər müşahidə edilmirdi. Bu səbəbdən klassik dövrdə heç bir dövlət müdaxiləsi olmadan bazarlarda həm daxili, həm də xarici tarazlığı əldə etmək və saxlamaq mümkün idi. Bütün iqtisadi sistem də buna uyğun fəaliyyət göstərirdi.

Orta əsrlərdə iqtisadiyyatda əmtəə və xidmətlərin qiymətləri arasındakı nisbət uzunmüddət sabit qalırdı (Иохин В.Я. Экономическая теория: Учеб. М.: Юристъ, 2008. 861 с. 9.). Yəni pulun yalnız iki funksiyası – mübadilə və yığım vasitəsi funksiyaları mövcud idi. Başqa sözlə, iqtisadiyyatda pulun miqdarının artırılması bütün

məhsulların qiymətlərini eyni dərəcədə artıracağından nisbi qiymətlər dəyişməyəcək, hər bir məhsulun real qiyməti sabit qalacaqdı.

Bütün məhsulların və xidmətlərin qiymətlərinin eyni dərəcədə dəyişməsi səbəbindən inflyasiyanın resurs və gəlir bölgüsünə təsirinin olmadığına inanılırdı. Çünki, qiymətlər nominal olaraq nə qədər qalxsa da, real qiymətlər sabit qaldığından əhalinin gəlirlərində heç bir dəyişiklik olmayacaqdı.

Bu dövrdə əhalinin gəlirləri bazar mexanizmi vasitəsi ilə tənzimlənirdi. Çünki, əvvəldə qeyd edildiyi kimi, ixtisaslaşma hələ baş verməmişdi. Belə ki, bir sektorda gəlirlər aşağı endikdə, fərdlər gəlirləri yüksək olan sektora sərbəst şəkildə keçə bilirdilər. Bu isə müəyyən vaxt sonra gəlirləri az olan sahədə təklifin azalmasına və gəlirlərin artmasına, gəlirləri çox olan sahədə isə təklifin artması və gəlirlərin azalmasına səbəb olurdu. Nəticədə sektorlar arasında həm gəlir bölgüsü, həm də resurs bölgüsü tənzimlənirdi.

İşsizlik də bazar mexanizmi ilə tənzimlənirdi. Əgər bazarda işsizlərin sayı artarsa, əmək təklifi artacaqdı. Bu əmək haqlarını aşağı endirəcək və sahibkarların daha çox işçi işlətməsinə imkan verəcəkdi. Nəticədə məşğulluq səviyyəsi əvvəlki səviyyəsinə qayıdacaqdı.

Fransız iqtisadi məktəbinin banisi Jan Batist Sey tərəfindən irəli sürülən və "Sey qanunu" kimi tanınan "hər təklif öz tələbini yaradır" ideyasını əsas götürərək bazarlarda tələb və təklifin daim tarazlığa gəldiyini və ona əlavə müdaxilənin lazımsız olduğunu müdafiə edirdilər ( Иохин В.Я. Экономическая теория: Учеб. М.: Юристъ, 2008. 861 с. 9.).

. Onlar dövlətin təklif və ya tələbin miqdarına müdaxiləsinin mövcud şərtləri pozacağını və tarazlıq əldə edilməyəcəyini iddia edirdilər.

Müasir dünyamızda hər bir dövlətin iqtisadi inkişafının əsas şərti yığımdır. Yığım - investisiyaları qarşıladığı müddətcə həm əsas vəsaitlərin istifadəsi zamanı baş verən aşınmanın maliyyələşdirilməsi, həm də iqtisadi inkişaf üçün lazım olan sərmayə qoyuluşu həyata keçirdir. Belə ki, iqtisadi sabitlik əldə edilməsi üçün yığım investisiyaların həcminə bərabər olmalıdır. Onlara görə, yığımla investisiyalar arasında tarazlığı faiz dərəcəsi təmin edir.

İqtisadi proseslərə qarışmasa belə, dövlət bəzi xidmətlər göstərməli və təhlükəsizliyi təmin etməli idi. Bu baxımından onun mövcudluğundan qaçmaq mümkün deyildi. Dövlətin iqtisadi tarazlığı pozmasından narahat olan klassiklər büdcə xərclərinə və gəlirlərinə sərt məhdudiyyətlər qoyulmasının tərəfdarı idilər. Məhdudiyyətlər əsasən, dövlət gəlirləri üzərində cəmləşmişdi. Klasssik iqtisad elminin banilərindən olan Adam Smit, Jan Batist Sey və David Rikardo öz əsərlərində dövlət gəlirlərinin yalnız "neytral vergilər" əsasında formalaşmasının tərəfdarı idilər. Neytral vergilər subyektin gəlirindən asılı olmayaraq hər kəsdən eyni miqdarda tutulan sabit vergi növü idi. Amma bu vergilərin iqtisadi subyektlərin fəaliyyətinə təsir etməyəcəyi də mübahisəli bir məsələ idi. Belə ki, gəliri yüksək olan sahibkar üçün bu cüzi bir məbləğ idi və onun qərarına heç bir təsir göstərmirdi. Amma aşağı gəlirli kiçik sahibkarlar bəzən bu vergilər ucbatından fəaliyyətlərini dayandırmaq məcburiyyəti ilə üzləşirdilər.

Klassik iqtisadçıların fikirlərinə əsasən dövlət gəlirləri sistemində borclanma yolverilməz idi. Onlar bunu iki səbəblə əlaqələndirirdilər. Birincisi, artan büdcə kəsiri bazarda əlavə tələb yaradacağından tələb və təklifin təbii tarazlığı pozulacaqdır. Bu baxımdan büdcə kəsirinin və profisitinin olmasına etiraz edir, balanslı büdcə ideyasını müdafiə edirdilər. İkinci səbəb isə borclanmanın nəsillər arasında resursların bölgüsünə mənfi təsir edəcəyi düşüncəsi idi. Belə ki, klassiklər cari ehtiyacları ödəməyi gələcək nəsillərin gəlirləri hesabına etməyin əlehinə idilər.

Klassik iqtisadşılar öz əsəsrlərində daxili iqtisadi münasibətlərdə olduğu kimi xarici iqtisadi münasibətlərdə də tarazlığın olduğunu iddia edirdilər. Belə ki, klassik dövrdə ölkənin pulu arxasında qızıl , gümüş və s. kimi qiymətli metallar dayanırdı. Yəni ölkədəki bütün pulun dəyəri qiymətli metalların həcminə bərabər idi. Ölkələr arasında olan mübadilə də elə bu qiymətli metallar vasitəsi ilə aparılırdı. Belə ki, idxalçı ölkə ixracçı ölkəyə mübadilə qarşılığında qiymətli metal verməklə həm öz ehtiyatlarını azaldır, həm də pulun dəyərini qaldırırdı. İxracçı ölkədə isə pulun miqdarı sabit olduğu şəraitdə ölkəyə qiymətli metalların daxil olması pulun dəyərini aşağı salırdı. Beləliklə, idxalçı ölkədə deflyasiya, ixracçı ölkədə isə inflyasiya baş verirdi. Müəyyən müddət sonra isə idxalçı ölkədə qiymətlər ixracçıya nisbətən aşağı

enir, idxal-ixrac prosesi tərsinə dönür və qiymətli metalların axın istiqaməti dəyişirdi. Bu yanaşmaya əsaslanan klassik iqtisad məktəbinin nümayəndələri dövlətin valyuta kursuna müdaxiləsini düzgün hesab etmir və bunun tədiyyə balansındakı tarazlığı pozacağı fikrini müdafiyə edirdilər (Novruzov N A., Hüseynov X.Ə., "Maliyyə". Kooperasiya nəşriyyatı – 2007).

Nəticə etibarı ilə, klassik iqtisad məktəbinin nümayəndələri bu dövrdəki iqtisadiyyatın xüsusiyyətlərinin və şərtlərinin iqtisadi tarazlığı təmin etməkdə bazar mexanizminə imkan verdiyinə inanır və hər hansı müdaxilənin bu tarazlığı zədələyəcəyini hesab edirdilər. Həmçinin, onlar pulun yalnız mübadilə və yığım vasitəsi olduğunu irəli sürür və milli gəlirin artırılmasında, məşğulluğun təmin edilməsində və gəlirlərin bölgüsündə onun heç bir rol oynamadığına inanırdılar. Amma müəyyən müddət sonra birjaların yaranması iqtisadi dalğalanmaların daha şiddətli və tez-tez baş verməsinə səbəb oldu. 1929-cu ildəki Böyük Böhran zamanı baş verən prosesləri izah edə bilməyən klassik ideyalar artıq öz keçərliliyini itirdi və yeni yanaşmaya ehtiyac yarandı.

Fiskal siyasətin sabitliyi təmin etməsi ilə bağlı fikirlər 1970-ci illərdən sonra dəyişməyə başladı və tələb yönlü fiskal siyasətin effektivliyi müzakirə obyektinə çevrildi. Bu müzakirələr fiskal siyasətin Keynsçi olmayan (Keyns və onun davamçıları tərəfindən izah edilməyən) effektlərini ortaya çıxardı. İqtisadi ədəbiyyatlarda belə effektlər sırasında ən çox rast gəlinənlər "rasional gözləmələr hipotezi", "rikardoçu bərabərlik hipotezi" və "genişləndirici fiskal daralma hipotezi"-dir21. (Sayım F., Oruç S. "Finansal sistemin yapısı ve finansal piyasaların işleyişi" web-makale).

Rasional Gözləmələr Hipotezi

Qeyd etdiyimiz kimi rasional gözləmələr 1970-ci illərdən sonra Yeni Klassik məktəbin Keynsçi yanaşmaya qarşı irəli sürdüyü bir ideya idi. Rasional gözləmələr hipotezinə əsasən fərdlər dövlətin həyata keçirəcəyi fiskal addımları əvvəlcədən müəyyən edir və onun təsirlərini zəiflədir, hətta sıfıra endirirlər. Rasional gözləmələr hipotezinə əsasən, fiskal siyasət gözlənilməyən şoklar vasitəsi ilə iqtisadiyyata təsir göstərə bilər. Amma bu proses qısamüddət üçün keçərlidir.

Belə ki, dəyişiklikləri qabaqcadan sezən fərdlər artıq fəaliyyətlərini yeni şərtlərə uyğunlaşdırır və fiskal siyasətin təsiri zəifləyir və ya aradan qalxır. Nəticə etibarilə rasional gözləmələr hipotezi Keynsin dövlət müdaxiləsi prosesinin gözlənilən nəticə verməyəcəyini və tələb yönlü addımlarının məhsuldar olmayacağını iddia edir.

Rikardoçu Bərabərlik Hipotezi

Bu hipotez dövlət xərclərinin maliyyələşməsində vergilərin və ya borclanmanın iqtisadi artım üçün eyni effekt verdiyi fikrini müdafiə edir. Rikardoçu bərabərlik hipotezinə əsasən, fərdlərin xərcləri yalnız indiki dövrdəki gəlirlərlə bağlı olmayıb, həm də gələcək gəlirlərə uyğun olaraq müəyyənləşdirilir. Bu səbəbdən hazırda dövlət xərclərinin vergilər yox, borclanma hesabına maliyyələşdirilməsi zamanı vergi ödəyiciləri bu borcun gələcəkdə vergi artımı hesabına qaytarlacağını bildikləri üçün xərclərini artırmırlar və gələcəkdəki xərcləri ödəmək üçün yığıma üstünlük verirlər.

Genişləndirici Fiskal Daralma Hipotezi

1980-ci illərdə Avropanın bəzi ölkələrində həyata keçirilən fiskal siyasət nə Keyns modelinə, nə də onu tənqid edən rasional gözləmələr hipotezi və Rikardoçu bərabərlik hipotezinə uyğun gəlmirdi. Belə ki, 1983-1986-cı illərdə Danimarkada və 1987-1989-cu illərdə İrlandiyada həyata keçirilən fiskal konsolidasiya siyasəti nəticəsində iqtisadi artım baş vermişdi.

Daraldıcı fiskal siyasətin genişləndirici nəticə doğurması fiskal siyasətlə bağlı müzakirələri yeni müstəviyə çıxardı. Keyns modelində göstərilən nəticələrə əks olan, rasional gözləmələr və rikardoçu bərabərlik hipotezlərinin arqumentlərinə uyğun gəlməyən bu hal iqtisadi ədəbiyyatlarda “Fiskal siyasətin anti-Keynsçi effektləri” və ya “Fiskal siyasətin asimmetrik effektləri” adını aldı. Bu halın izahına yönəlmiş yanaşmalar isə ümumilikdə “Genişləndirici fiskal daralma hipotezi” adlandırılır (Kəlbiyev Y.A. Fiskal siyasət və milli iqtisadiyyatın tənzimlənməsi problemləri. Monoqrafiya. Bakı: 2005, 468 s.).

Bu hipotezi dəstəkləyən həm tələb yönlü, həm də təklif yönlü ideyalar mövcuddur. Bunlardan ilki iqtisadi subyektlərin gələcəkdə vergi güzəştlərinin tətbiq

ediləcəyi ilə bağlı gözləntilərinin əmələ gəlməsidir. Belə olduqda fərdlər istehlakı artırır, məcmu tələb artdığından istehsalda da artım baş verir.

Gözləntilərin iqtisadi artımı dəstəkləyəcək şəkildə formalaşması ilk növbədə dövlət borcunun ÜDM-ə nisbəti ilə bağlıdır. Əgər dövlət borcunun həddi yüksək səviyyədədirsə, Keyns modelinin şərtlərinə uyğun olmayan nəticələr meydana gələ bilər. Belə ki, iqtisadi subyektlər dövlət borcu yüksək səviyyədə olduğu zaman gələcəkdə vergilərin artmasını gözləyirlər. Əgər bu baş verən bir fiskal daralma həyata keçirilərsə, iqtisadi subyektlərin gələcəkdə vergi artımı ilə bağlı fikirləri dəyişəcək və bu istehlakın artmasına səbəb olacaq.

Dövlət borcunun həcmi ilə yanaşı dövlət xərclərinin ÜDM-dəki payı da fiskal siyasətin effektlərinə təsir edir. Əgər bu rəqəm nəzərdə tutulmuş həddi keçərsə, fərdlərin gələcəkdə fiskal daralma baş verəcəyi ilə bağlı gözləntiləri əmələ gəlir və bu da vergilərin azalacağı demək olduğundan istehlak artır, məcmu tələb genişlənir və iqtisadi artım baş verir.

Bu hipotezinin tələb yönlü izahları ilə bərabər, təklif yönlü izahları da mövcuddur. Belə izahlardan birinə görə, dövlət xüsusi ilə dövlət işçilərinin maaşlarını azaldacaq bir fiskal daralma siyasəti həyata keçirərsə, əmək bazarında özəl sektora olan maraq artacaq. Bu özəl sektorda əmək təklifinin artmasına və əmək haqqlarının azalmasına səbəb olacaq. Bu zaman sahibkarların xərcləri azalacaq və daha çox işçi cəlb edə biləcəklər və nəticədə istehsalı artırmaq imkanları yaranacaq.

Göründüyü kimi, tətbiq edilən fiskal siyasətin nəticələri iqtisadi subyektlərin gözləntilərindən, dövlət borcunun ölçüsündən, dövlət xərclərinin ÜDM-ə nisbətindən və ən vacibi, siyasət tətbiq edilən ölkənin spesifik xüsusiyyətlərindən asılıdır. Eyni bir fiskal siyasət qərarı müxtəlif ölkələrdə və zamanlarda fərqli nəticələr doğura bilər.

## 1.3. Dövlət maliyyəsinin idarə olunmasında fiskal qaydaların əsas vəzifələri.

Məlum olduğu kimi, dövlət maliyyəsinin əsas iqtisadi elementlərindən biri dövlət büdcəsidir. Məhz bu baxımdan da Azərbaycan Respublikasının dövlət büdcəsinin gəlir hissəsinin formalaşdırılması özündə vergitutma sahəsini, milli iqtisadiyyatın səmərəliliyinin yüksəldilməsini, iqtisadi artımı, əhalinin məşğulluğunu, pul dövriyyəsinin sabitləşdirilməsini əks etdirir.

Bildiyimiz kimi, Azərbaycan Respublikasının maliyyə sistemi dövlət maliyyəsi və müəssisələrin maliyyəsindən ibarətdir (Y.A.Kəlbiyev., "Vergi siyasətinin konseptual əsasları və praktiki əsasları". Bakı, "İqtisad Universiteti" Nəşriyyatı, 2012, 488 s.). Fiskal siyasət dövlət maliyyəsinin sabit iqtisadi artımın təmin edilməsində əhəmiyyətli rol oynayır.

Azərbaycan Respublikasında dövlətin həyata keçirdiyi fiskal siyasət iqtisadiyyatda dövri tərəddüdlərin hamarlaşdırılmasına, iqtisadi artım sürətinin yüksəldilməsinə, əhalinin tam məşğulluğuna nail olunmasına və inflyasiyanın mülayim sürətinə nail olunmasına xidmət edir.

Hal-hazırda Azərbaycan Respublikasında fiskal siyasətin əsas aləti kimi vergi sistemini, transfer və digər ödənişləri göstərmək olar. Fiskal siyasətin alətləri hər bir dövlətin iqtisadiyyatına müxtəlif cür təsir göstərirlər. İnkişaf etmiş ölkələrin təcrübəsində də məlumdur ki, dövlət satınalmaları dövlətin məcmu xərclərinin əsas elementidir. Onlar xərclərin səviyyəsinin artmasına səbəb olur.

Vergilər məcmu xərclərə mənfi təsir edir. İstənilən vergilər əldə olan gəlirin məbləğini azaldır. Əldə olan gəlirin azalması öz növbəsində istehlak xərclərinin azalmasına gətirib çıxardır. Bu da eyni zamanda vergi yığımların da səviyyəsinin aşağı düşməsinə səbəb olur.

Bildiyimiz kimi, iqtisadi böhranlar zamanı dövlət öz xərclərini artırır, vergilərin səviyyəsini azaldır ki, bu da alıcılıq tələbatının genişlənməsinə xidmət edir. Bəzi hallarda istehsalda artım inflyasiya ilə müşayiət olunur. Bu zaman dövlət əlverişli vergi sistemini seçməlidir. Seçilmiş vergi sisteminə uyğun olaraq dövlət büdcə xərclərini azaldır. Paralel olaraq isə vergilərin səviyyəsini yüksəldir ki, bu da ölkədə işgüzar fəallığa maneə olur.

Avtomatik fiskal siyasət anlayışı məcmu gəlirin, dövlət xərclərinin, vergilərin və dövlət büdcəsinin saldosunun avtomatik olaraq dəyişməsi anlamında çıxış edir. Avtomatik fiskal siyasət iqtisadi yüksəliş dövründə dövlət büdcəsinə xalis vergi daxilolmalarının həcminin avtomatik olaraq artmasını, iqtisadi tənəzzül zamanı isə dövlət büdcəsinə xalis vergi daxilolmalarının həcminin avtomatik olaraq azalmasını nəzərdə tutur.

Azərbaycan Respublikasında fiskal siyasətin avtomatik tənzimləyicilərinə məcmu tələbin qarşısını alan proqressiv vergi sistemi, işsizliyə görə ödənilən müavinətlərin və digər sosial ödənişlərin həcminin artması aiddir.

Azərbaycan Respublikasında istehsalı təkmilləşdirilməsi məqsədilə dövlət xərclərinin həcminin artırılması və vergi dərəcələrinin aşağı salınması zəruridir. Uzunmüddətli dövrdə vergi dərəcələrinin aşağı salınması iqtisadi artımın stimullaşdırılmasına səbəb olur.

Bəzən fiskal siyasət məcmu tələbi azaldır. Bu zaman ölkədə inflyasiyasının aşağı salınması ilə müşayiət olunur. Nəzərə almaq lazımdır ki, uzunmüddətli dövrdə restriksionist siyasət istehsalın tənəzzülünə və işsizliyin artımına səbəb olur.

Azərbaycan Respublikası müstəqil milli iqtisadi siyasət həyata keçirir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin apardığı müstəqil siyasət ilə ölkəmizin milli iqtisadiyyatın gələcəyini müəyyən edilir. Azərbaycan Respublikasının apardığı iqtisadi siyasət hərtərəfli və konseptual əsaslarla həyata keçirilir. Dünyada belə bir anlayış mövcuddur ki, siyasət iqtisadiyyatdan törəyir.

Fiskal siyasət olduqca mürəkkəb və geniş tədbirlər kompleksini əhatə edir (Y.A.Kəlbiyev., “Vergi siyasətinin konseptual əsasları və praktiki əsasları”. Bakı, “İqtisad Universiteti” Nəşriyyatı, 2012, 488 s.). Bu baxımdan da ölkəmizdə fiskal siyasətin ümumi konsepsiyasının işlənməsi, adekvat maliyyə mexanizminin yaradılması və dövlətin maliyyə fəaliyyətinin idarə edilməsi kimi tədbirlər planının həyata keçirilməsi dövlətimizin əsas prioritetlərindəndir.

Hal-hazırda Azərbaycan Respublikasında fiskal siyasətinin idarə edilməsi proqnozlaşdırma, planlaşdırma, operativ idarəetmə, tənzimləmə və nəzarət elementlərini özündə əks etdirir.

İstənilən dövlət öz fiskal siyasətini təşkil edərkən aşağıdakı prinsiplərə riayət etməlidir:

1. Sərbəstlik prinsipi;

2. Dövlətin iqtisadiyyatına müdaxiləsi prinsipi;

3. Dövlətin gəlir və xərclərinin balanslaşdırılması, maliyyə ehtiyatlarının yaradılması prinsipi.

Dövlət maliyyəsinin idarə olunması, bütün mülkiyyət formalarının təmin edilməsi, pul bazarının, fond birjalarının yaradılması üzrə işlərin aparılması, hərbi xərclərin nəzarətdə saxlanılması, kiçik biznesin inkişafı və s. iqtisadi elementlər fiskal siyasətin əsas istiqamətlərindəndir.

Ümumiyyətlə, bütün ölkələrdə fiskal siyasət həyata keçirilərkən elmi cəhətdən əsaslandırılma aparılmalıdır (Буглай В.Б., Ливенцев Н.Н. Международные экономические отношения. - М., Финансы и статистика. Ст 127). Elmi cəhətdən əsaslandırılmış fiskal siyasət daha fundamental olur. Bu da sonda dövlətin mövcud vəziyyətlə ayaqlaşmasına imkan verir. Fiskal siyasətin əsas sütunun vergi-büdcə siyasəti təşkil edir. Fiskal siyasət bəzi ədəbiyyatlarda antisiklik siyasət adlanır. Bu da dövlətin gəlir və xərclərini təqdim etməkdir, iqtisadi artımı təmin etməkdən ibarətdir. Bazar iqtisadiyyatı şəraitində Azərbaycan Respublikasınm sosial-iqtisadi inkişafı onun bazar tipli iqtisadi və sosial, elmi-texniki və intellektual potensialının daha sürətlə artımı və bu artımın sosial-iqtisadi nəticələrini təmin etmək məqsədilə maliyyə potensialına, onun istifadəsinin səmərəli yollarına ehtiyac doğurur.

Azərbaycan Respublikasında iqtisadi potensial yüksəldikcə, fiskal siyasətin səviyyəsinin təkmilləşməsinə də daima ehtiyac duyulur. Bu baxımdan maliyyə siyasətini formalaşdırılması və hər zaman qanunvericilik bazasının təkmilləşdirilməsi dövlətin əsas strateji hədəflərindən olmalıdır. Makroiqtisadi tarazlıq baxımından optimal ölçülü inflyasiya səviyyəsinin müəyyən edilməsi zəruri bir iqtisadi prosesdir. Bu zaman həm dövlət, həm də qeyri-dövlət sektorunda

maliyyə resurslarının daha səmərəli istifadə yolları müəyyən edilməli və proqnozlaşdırılması aktual olaraq həyata keçirilməlidir.

Hər bir dövlətin həyata keçirdiyi iqtisadi və sosial mexanizmlər investisiyanın təşviqi, dövlət büdcəsinin prioritetliyi, antiinhisar fəaliyyəti vasitəsilə həyata keçirilir. Bu zaman gəlirlərinin artırılmasında stimul yaratmaq və sosial təminatı təmin edən mexanizmlər vasitəsilə reallaşır. Bu mexanizmlər əsas etibarı ilə Ümumi Daxili Məhsul (ÜDM), onun dəyəri, dövlət büdcəsinin gəlirləri və xərcləri, investisiyanın sahə və ərazi quruluşu, həmçinin əmək haqqı sistemi, sahibkarlıq gəlirləri aiddir.

Maliyyə resursları ÜDM artdıqca artır. Onun tərkibində daxili imkanların xüsusi çəkisi çoxdur. Son zamanlar ölkəmizdə aparılan uğurlu islahatlar nəticəsində neft sahəsi ilə yanaşı qeyri-dövlət sahələrinin də xüsusi çəkisi artmışdır. Fiskal siyasət dövlət maliyyəsinin dayanıqlığının təmin olunmasına təsir edən əsas iqtisadi elementdir. İstər maliyyə, istərsə də makro dayanıqlığının təmin olunması əhalinin rifah halının təkmilləşdirilməsinə xidmət edir. Torpaqlarımızın işğaldan azad olunmasını və hal-hazırda ölkəmizin iqtisadi gücünü nəzərə alaraq konseptual inkişaf baxımından aşağıdakı təklifləri tədqiqat nəticəsində vermək olar:

- əhalinin tələbatının ödənilməsi, onun əmək prosesində təkrar istehsalı və iş qüvvəsi kimi stimullaşdırılması məqsədilə gəlirlərin artırılması yolları və alıcılıq qabiliyyətinin yüksəldilməsi üçün inflyasiyanın artması ilə yanaşı ən zəruri ehtiyaclar üçün lazım olan xərclər arasında tarazlı inkişaf qanunauyğunluğunu tənzimləmək;

- investisiya siyasəti fiskal siyasətin əsasında formalaşır, maliyyə potensialının istifadəsinin prioritet istiqamətlərini təmin edir, düzgün və optimal kapital qoyuluşu yeni iş yerlərinin açılmasına, iqtisadi artımın sürətlənməsinə və dövriyyədə olan vəsaitlərin ümumi həcminin onun sahə və ərazi quruluşunun təkmilləşməsinə, habelə investisiya ilə istehlak arasında optimal nisbətlərin təmin olunmasına şərait yaratmaq.

- maliyyə resurslarının artırılması məqsədilə, kredit resursları səmərəli sahələrə yönəldilməli və kiçik biznes fəaliyyəti üçün əlverişli şərait yaradan maliyyə lizinqi, kredit ittifaqları faiz siyasəti yolu ilə sahibkarlığın və regionların maliyyə şəraitini yüksəltmək.

Azərbaycan Respublikasının dövlət xərcləri, dövlətin saxlanılmasına və dövlət satınalmalarına çəkilən xərcləri özündə cəmləşdirir. Dövlət satınalmaları dedikdə - büdcə hesabına sosial yönümlü layihələrin həyata keçirilməsi, infrastruktur sahələrin təkmilləşdirilməsindən tutmuş kənd təsərrüfatı məhsullarının, hərbi texnikanın alınmasına qədər olan xərcləri əhatə edə bilər. Təbii ki, dünya ölkələrinin təcrübəsində də bu cür sosial-iqtisadi məsələlərdə istehlakçı qismində dövlətin özü çıxış edir. Azərbaycan Respublikası dövlət fiskal siyasəti vasitəsi ilə ölkədə gedən iqtisadi proseslərə və onları tənzimləmək məqsədi ilə daim müdaxilə edir. Bu xərcləri təmin etmək üçün dövlət gəlir hesabına həyata keçirilir.

# II FƏSİL.
# DÖVLƏT MALİYYƏSİNİN İDARƏ OLUNMASINDA FİSKAL QAYDALARIN TƏŞKİLİNİN MÖVCUD VƏZİYYƏTİNİN TƏHLİLİ.

## 2.1. Azərbaycan Respublikasında dövlət maliyyəsinin təşkilində fiskal siyasətin normativ-hüquqi bazası.

İnkişaf etmiş ölkələrin təcrübəsindən məlum olur ki, cəmiyyət inkişaf etdikcə dövlət maliyyəsinin təşkilində fiskal siyasətinin normativ-hüquqi bazası da təkmilləşir. Qeyd edə bilərik ki, hər bir ölkənin həm dövlət maliyyəsinin düzgün təşkili, həm də fiskal siyasətin dayanıqlılığının təmin edilməsi davamlı iqtisadi

inkişafa nail olunması üçün önəmlidir. Bu tədbirlər institusional və praktik əhəmiyyət daşıyaraq təmin edilməlidir.

Təməl hüquqi bazanın möhkəmləndirilməsinə arxalanaraq fiskal risklərin qiymətləndirilməsi və tənzimlənməsinin gücləndirilməsi dövlətin maliyyə idarəetməsinin təkmilləşdirilməsinə bir başa təsir edir. Bu zaman gəlir və xərc siyasəti üçün müasir institusional çərçivələrdən geniş istifadə edilir. Müasir dünyamızda dövlət maliyyəsi elmində fiskal siyasətin nəzəri cəhətdən əsaslandırılması büdcənin daxilolmalarını, xərclərinin doğru şəkildə tənzimlənməsini, dövlət borcunun düzgün idarə edilməsini özündə əks etdirir.

Qeyd olunan bu istiqamətdə müsbət nəticələrə nail olmaq hər bir dövlətin qarşında duran əsas iqtisadi məsələlərdəndir. Dövlət vəsaitinin idarə edilməsinin optimallaşdırılması ən başlıca iqtisadi hədəfdir.

XXVII əsrdən başlayaraq fiskal siyasəti nəzəriyyələri iqtisadi prinsiplərin icmalı kimi həyata keçirilməyə başlamışdır (Coşkun Can Aktan, "Arz-Yanlı İktisat ve Haldun-Laffer Etkisi" Prof.Dr. Salih Şanvere Armağan, İstanbul, T:C: Marmara Üniversitesi Maliye Araştırma ve Uygulama Merkezi,Yayın No:10, 1998.). Bu nəzəriyyələrin əsas istiqamətləri cəmiyyətin iqtisadi inkişafının təsiri altında formalaşırdı. Müasir dünyamızda fiskal siyasət nəzəriyyələri özündə maliyyə, vergi və onların cəmiyyət həyatında rolunu birləşdirir. Bu zaman dövlət maliyyəsinin təşkilində fiskal siyasətinin rolu və əhəmiyyəti haqqında biliklər sistemli şəkildə tədqiq olunur. Praktik olaraq da fiskal siyasəti dövlət maliyyəsi və vergi sisteminin qurulmasının müxtəlif modellərini özündə birləşdirir.

Dövlət maliyyəsinin təşkilində fiskal siyasətinin rolu və əhəmiyyətinin normativ hüquqi aktları Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən imzalanan fərmanlar və Nazirlər Kabinetinin təsdiq etdiyi qərarları əsasında həyata keçirilir. Bunlar ölkə başçısının "Azərbaycan Respublikasının Maliyyə Nazirliyi haqqında Əsasnamə"də aydın şəkildə bütün bu iqtisadi məsələləri qeyd etmişdir. Azərbaycan Respublikası Maliyyə Nazirliyi ölkəmizdə maliyyə siyasətini işləyib hazırlayan və həyata keçirən, dövlət maliyyəsinin idarə olunmasını təşkil edən, dövlət və icmal büdcələrin layihələrini hazırlayan və dövlət

büdcəsinin kassa icrasını təmin edən dövlət borcunun və maliyyə öhdəliklərinin idarə edilməsi, mühasibat uçotunun təşkili və aparılması sahələrində dövlət tənzimlənməsinin, dövlət büdcəsi vəsaitindən istifadə, qiymətli metalların və qiymətli daşların istehsalı, emalı və dövriyyəsi sahələrində dövlət nəzarətinin həyata keçirilməsini təmin edən mərkəzi icra hakimiyyəti orqanı kimi göstərilir.

Azərbaycan Respublikasında dövlət maliyyəsinin təşkilində fiskal siyasətinin normativ-hüquqi bazasında "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununu qeyd edə bilərik. Bura da növbəti il və sonrakı üç il üçün icmal büdcə xərclərinin proqnozlaşdırılan yuxarı həddi cari ilin icmal büdcə xərclərinin yuxarı həddindən artıq ola bilməz. İcmal büdcə xərclərinin yuxarı həddi hesablanarkən dövlət borcu, dövlət müəssisələrinin borcları nəzərə alınır və onun əsasında dövlətin və dövlət müəssisələrinin orta müddətli dövrdə borcalma üzrə artım və məhdudlaşdırma hədəfləri müəyyən edilir. Növbəti büdcə ili üzrə icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ümumi daxili məhsula nisbət göstəricisinin cari ilin müvafiq göstəricisindən az olması hədəflənir. Əks təqdirdə, icmal büdcə xərclərinin proqnozlaşdırılan yuxarı həddi uyğun olaraq azaldılır. İcmal büdcənin qeyri-neft baza kəsrinin qeyri-neft ümumi daxili məhsula nisbətinin ortamüddətli dövr üzrə hədəfləri Maliyyə Nazirliyi tərəfindən müəyyən edilir. Büdcə qaydasının tətbiqinin dayandırılması halında icmal büdcənin xərcləri icmal büdcə xərclərinin yuxarı həddindən artıq olarsa, Maliyyə Nazirliyi icmal büdcə xərclərinin ortamüddətli dövrdə büdcə qaydası üzrə hesablanmış yuxarı həddə çatdırılması üzrə təkliflərini təqdim edir.

Fiskal siyasətin nəzəri baxımdan əsas predmetini vergitutmanın ayrı-ayrı məsələləri, vergilərin müxtəlif növləri , vergilərin sayı, vergilərin dərəcələri və s. təşkil edir.

Azərbaycan Respublikasında da dövlət maliyyə münasibətlərinin predmeti iqtisadiyyatın əsasları, müəssisə iqtisadiyyatı, biznesin əsasları, hüquq, sosiologiya və s. kimi müvafiq sahələrin predmetləri ilə qarşılıqlı əlaqədə tədqiq olunur (Prof. Doc. Cihan Pulut, Elçin Süleymanov "Dövlət Maliyyəsi", Qafqaz Universiteti Nəşri-2013, 331 s.). Ölkəmizdə dövlət maliyyə siyasəti təşkil olunarkən idarəetmənin

xüsusiyyətləri, cəmiyyətin inkişaf səviyyəsi və digər məsələlər, daha doğrusu, aşağıdakı prinsiplər nəzərə alınmalıdır:

1. Sərbəstlik prinsipi. Mahiyyəti ondan ibarətdir ki, Azərbaycan (eləcə də başqa ölkələr) müstəqil dövlət olaraq, öz maliyyə siyasətini özü, heç bir kənar təsirə məruz qalmadan öz daxili iqtisadi xüsusiyyətlərini formalaşdırsın.

2. Dövlətin iqtisadiyyata ədalətli müdaxiləsi. Bu prinsipə görə, heç də dövlət bütün iqtisadi fəaliyyəti öz əlində cəmləşdirmir, köklü maliyyə məsələlərini bazar iqtisadiyyatının tələblərini nəzərə almaqla idarə edir, özəl bölmənin fəaliyyət müstəqilliyi toxunulmaz qalır.

Ümumilikdə isə, dövlət maliyyəsinin təşkilində əsasən aşağıdakı prinsiplərə əməl olunmalıdır:

1. Dövlət maliyyə siyasətinin həyata keçirilməsində və idarə edilməsində demokratik prinsiplərə əməl edilməlidir;

2. Ümumdövlət maliyyə fondlarından istifadə edərkən həm dövlətin, həm də ayrı-ayrı iqtisadi regionların sosial-iqtisadi inkişaf mənafeyi nəzərə alınmalıdır;

3. Dövlət maliyyəsi ilə təsərrüfat subyektlərinin maliyyəsinin qarşılıqlı əlaqəsi təmin edilməlidir;

4. Maliyyə sisteminin bütün həlqələrinin, xüsusilə büdcənin gəlir və xərclərinin tarazlaşdırılması təmin edilməlidir;

5. Ölkənin maliyyə resursları üzərində dövlət nəzarəti təmin edilməlidir;

6. Fövqəladə xərclərin ödənilməsi üçün dövlətin maliyyə ehtiyatları yaradılmalıdır;

7. Ümumdövlət vəzifələrinin vaxtında maliyyələşdirilməsi məqsədilə dövlətin sərəncamında zəruri miqdarda maliyyə resursları cəmlənməlidir

Sxem 1-də Azərbaycan Respublikasında dövlət maliyyəsinin təşkilində ən vacib istiqamətlər öz əksini tapmıdır:

**Sxem 1: Azərbaycan Respublikasında dövlət maliyyəsinin təşkili.**



| büdcə | Vergi | Investisiya |
|---|---|---|

***Mənbə:*** Müəllif tərəfindən tərtib olunub

Sxem 1-ə əsasən:

1. Büdcə siyasəti müxtəlif büdcələrin qarşılıqlı əlaqələrinin həyata keçirilməsi tədbirlərinin cəmindən ibarətdir. Xüsusilə, büdcə siyasəti büdcənin gəlir hissəsinin strukturunda, müxtəlif büdcələr arasında xərclərin paylaşdırılmasında, büdcə kəsirinin kompensasiya edilməsi mənbələrində və vasitələrində, dövlət borcunun idarə edilməsi formalarında və metodlarında ifadə edilir.

2. Vergi siyasəti müvafiq büdcələrin gəlir hissəsinin formalaşdırılması məqsədilə iqtisadi subyektlər və əhali tərəfindən alınan gəlirlərin bir hissəsinin məcburi olaraq götürülməsi ilə əlaqədar dövlət hakimiyyət orqanlarının və yerli özünüidarə orqanlarının fəaliyyətini ifadə edir.

Vergi siyasəti öz təcəssümünü bu və ya digər vergi sisteminin qurulmasında tapmışdır. Dünyanın inkişaf etmiş ölkələrində vergi sistemi vergi növləri və vergi qoyma obyektlərinin müxtəlifliyi, eləcə də vergi ödəyicilərinin vergi orqanları ilə qarşılıqlı əlaqələrinin xarakteri ilə səciyyələndirilir. Buna baxmayaraq, dünya təcrübəsinə əsasən vergi sisteminin qurulması üzrə müəyyən prinsip və üsullar işlənib hazırlanmışdır.

3. İnvestisiya siyasəti yerli və xarici investisiyaların hər şeydən əvvəl, iqtisadiyyatın real sektoruna cəlb olunması üçün şərtlərin yaradılması ilə əlaqədar kompleks tədbirlərdən ibarətdir. Maliyyə siyasətinin bir hissəsi kimi investisiya siyasəti dövlət idarəçiliyinin və təsərrüfat subyektlərinin maliyyə idarəçiliyinin müxtəlif səviyyələrində yerinə yetirilir.

Dövlət maliyyə siyasətini həyata keçirmək üçün maliyyə mexanizmindən istifadə edilir. Dövlət özünün qanunverici və icraedici orqanları vasitəsi ilə, iqtisadi qanunların ciddi şəkildə öyrənilməsi əsasında, maliyyə siyasətinin və iqtisadi siyasətin qanunauyğunluqlarının təhlili yolu ilə ictimai məhsulun və milli

gəlirin bölüşdürülməsi metodlarını, pul yığımlarının formalarını təyin edir. Dövlət maliyyə resurslarının istifadəsi istiqamətlərini və prinsiplərini müəyyənləşdirir.

Dövlət maliyyəsinin təşkili zamanı səmərəli planlaşdırma və proqnozlaşdırma, maliyyə münasibətlərinin təşkili qaydalarında normativlərin tətbiqi əhəmiyyət kəsb edir (Боровиков В.И. Денежное обращение, кредит и финансы. - М.: Центр, 2002.). Bundan başqa maliyyə münasibətlərinin müxtəlif forma, metod və növlərinin düzgün tətbiqinə nəzarət olunması da vacib problemlərdən biridir.

İctimai təsərrüfatın ayrı-ayrı subyektlərinin iş xüsusiyyətlərindən asılı olaraq, həmçinin maliyyə münasibətlərinin, həlqələrinin və dairələrinin müxtəlifliyindən irəli gələrək maliyyə mexanizmi bir neçə yerə bölünür:

1. Müəssisə və təsərrüfat təşkilatlarının maliyyə mexanizmi
2. Sığorta mexanizmi
3. Dövlət maliyyəsinin fəaliyyətini təmin edən maliyyə mexanizmi

Öz növbəsində bu sahələrin hər biri özünün quruluş həlqələrinə malikdir. Məsələn, dövlət maliyyəsi mexanizmi büdcəyə və büdcədənkənar fondların fəaliyyəti mexanizminə bölünür. Ərazi bölgüsünə görə maliyyə mexanizmi dövlətin və yerli hakimiyyət orqanlarının maliyyə mexanizminə bölünür.

Dövlət maliyyəsi informasiyalarının əldə edilməsindən və planlaşdırılmasından ibarətdir (Sosial- iqtisadi inkişaf problemləri: təcrübə, meyllər və perspektiv istiqamətlər". Bakı, «Adiloğlu» nəşriyyatı - 2005, 538 s). Azərbaycan Respublikasında da dövlət maliyyə informasiyalarının dəqiqliyi və vaxtında alınması hər hansı bir prosesin gedişini araşdırmağa və son nəticəni təhlil etməyə imkan yaradır. Dövlət maliyyəsinin planlaşdırması dəyər formasında tərtib olunur. Pul gəlirlərinin səfərbərliyə alınması və bölgüsü, milli gəlirin bölgüsü və yenidən bölgüsü, pul fondlarının yaradılması və istifadə edilməsi maliyyə planlaşdırılmasının obyekti kimi çıxış edir.

Azərbaycan Respublikasında dövlət maliyyəsinin idarə edilməsini ali qanunverici hakimiyyət orqanı olan Azərbaycan Respublikasının Milli Məclisi, Azərbaycan Respublikası Maliyyə Nazirliyi, Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi yanında Vergi Xidməti, Azərbaycan Respublikası Dövlət Gömrük

Komitəsi, Azərbaycan Respublikası Mərkəzi Bankı və müvafiq orqanların yerli təşkilatları həyata keçirir.

Ölkəmizdə dövlət maliyyəsinin planlaşdırılması aşağıdakı sxem 2-də öz əksini tapır:

pul fondlarının yaradılması mənbələrinin müəyyənləş-dirilməsi

**Sxem 2: Dövlət maliyyəsinin planlaşdırılmasının vəzifələri**



*Mənbə:* Müəllif tərəfindən tərtib olunub

Sxem 2-ə bütün iqtisadi elementlərin tənzimlənməsinin əsas strategiyası kimi də baxmaq olar. Ölkəmizdə dövlət maliyyəsinin idarə edilməsi və təşkili şüurlu və qanunauyğun şəkildə həyata keçirilir. Bu isə bütün proseslərdə maliyyə nəzarətini zəruriləşdirir. İdarəedici subyekt nəzarətdən kənarda qala bilməz.

Azərbaycan Respublikasının Maliyyə Nazirliyi dövlət maliyyə siyasətini işləyib hazırlayan və həyata keçirən, dövlət maliyyəsinin idarə olunmasını təşkil edən, dövlət və icmal büdcələrin layihələrini hazırlayan və dövlət büdcəsinin kassa icrasını təmin edən, sığorta fəaliyyəti, dövlət borcunun idarə edilməsi, mühasibat uçotunun təşkili və aparılması sahələrində dövlət tənzimlənməsinin, dövlət büdcəsi vəsaitindən istifadəni və dövriyyəsi sahələrində dövlət nəzarətinin həyata keçirilməsini təmin edən mərkəzi icra hakimiyyəti orqanıdır.

Son illərdə Azərbaycan Respublikasında fiskal siyasətin tənzimlənməsi məqsədilə vergi sistemi modernləşdirilmiş, vergi xidmətləri müasir standartlara uyğunlaşdırılmış, vergi qanunvericiliyinin və vergi inzibatçılığının müasir tələblər baxımından qurulması istiqamətində önəmli addımlar atılmışdır. Digər sahələrdə olduğu kimi vergi sistemində səmərəli islahatların aparılması vergi dərəcələrinin aşağı salınması və vergi güzəştlərinin azaldılması yolu ilə vergitutma bazasının genişləndirilməsində, iqtisadiyyata investisiya qoyuluşunun stimullaşdırılmasında, sahibkarlıq fəaliyyəti üçün əlverişli vergi mühitinin yaradılmasında, ölkədə sosial-iqtisadi inkişafın və iqtisadi potensialın gücləndirilməsində mühüm rol oynayır.

Müasir iqtisadi şəraitdə Azərbaycan Respublikasında dövlət maliyyəsinin təşkilində fiskal siyasətini tənzimləmək üçün Azərbaycan Maliyyə Nazirliyi müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq sxem 3-dəki vəzifələri həyata keçirir:

**Sxem 3: Azərbaycan Respublikası Maliyyə Nazirliyinin həyata keçirdiyi vəzifələr**






**Mənbə:** Müəllif tərəfindən tərtib olunub

Yuxarıda qeyd olunan sxem 3-ə əsasən söyləmək olar ki, baxılan bütün bu iqtisadi məsələlər Azərbaycan Respublikasının büdcə vəsaitinin səfərbər edilməsi və istifadə olunması üzərində həyata keçirilir. Məhz buna görə də, dövlət maliyyə nəzarətinin bu növü büdcə nəzarəti adlanır. Büdcə nəzarəti iqtisadiyyatın inkişafına və dövlət büdcəsinə daxil olan vəsaitin maksimum artırılmasına və optimal maliyyə-büdcə siyasətinin işlənib hazırlanmasına şərait yaradır.

Vergi sisteminin təşkilati-nəzarət potensialının gücləndirilməsi, maddi-texniki təchizatının yaxşılaşdırılması, vergi inzibatçılığının bütün sahələrində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi, idarəetmənin keyfiyyətcə yeni mərhələyə qədəm qoyması ölkə inkişafının sürətləndirilməsinə təkan verir. Dövlətin tətbiq etdiyi vergi sistemi investisiya qoyuluşlarının həcminə və aktivliyinə təsir edən əsas amillərdən biri sayılır. İnkişaf etmiş ölkələrin vergi sistemlərinə nəzər salsaq görərik ki, onların vergi qanunvericiliklərində sahibkarlığın stimullaşdırılması prinsipinə uyğun olaraq investisiya qoyuluşuna vergi stimullarının verilməsi ilə bağlı normalar öz əksini tapmışdır. Həmin normalar, əsasən, amortizasiya rejimi, gəlirdən çıxılan xərclərin və vergitutma bazasının müəyyən olunması, vergi dərəcələrinin tənzimlənməsi məsələləri ilə bağlıdır.

Ölkə iqtisadiyyatında investisiya qoyuluşlarının aktivləşməsi prosesi ilk növbədə sahibkarlıq subyektlərinin vergi yükünün aşağı salınması ilə bağlıdır. Lakin qeyd etmək lazımdır ki, vergi stimullarının verilməsində yüksək səmərə investisiyalar üçün əlverişli şəraitin yaradılmasını nəzərdə tutan vergi stimulları ilə yanaşı, digər kompleks tədbirlərin də görülməsi nəticəsində baş verir (Глазьев С. Перспективы социально-экономического развития России. Экономист. 2009.№1,).

Bu gün Azərbaycan beynəlxalq miqyasda öz iqtisadi tərəqqisi ilə inkişafın milli modelini formalaşdırıb bununla da ölkəyə olan maraq və diqqət olduqca artıb. Bu baxımdan ölkə iqtisadiyyatın diversifikasiyası, qeyri-neft sahələrinin və regionların inkişafı sürətlənmiş, strateji valyuta ehtiyatlarının səmərəli idarə edilməsi və milli valyutanın sabitliyi təmin olunmuş, sahibkarlığa dövlət dəstəyi gücləndirilmiş, özəl bölmənin fəaliyyəti üçün əlverişli imkan yaradılmış, azad rəqabət mühiti təmin edilmiş, daha əlverişli investisiya mühitinin yaradılması istiqamətində tədbirlər davam etdirilmiş və əhalinin sosial rifahı daha da yaxşılaşmışdır. Dünyada biznes mühitinin qiymətləndirilməsi istiqamətində ənənəvi olaraq hər il dərc olunan hesabatlarda Azərbaycanda reallaşdırılan iqtisadi islahatlar daim diqqət mərkəzində saxlanılır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən aparılan kompleks iqtisadi islahatlar sahəsində sahibkarlıq fəaliyyətinin optimal gəlirliliyini təmin edəcək və rəqabət prinsiplərinə əsaslanacaq biznes mühitini, ölkənin investisiya cəlbediciliyini, beynəlxalq reytinqlərdə Azərbaycanın mövqeyini daha da təkmilləşdirilməsi istiqamətində ciddi siyasi-iqtisadi addımlar atılmaqdadır.

Azərbaycan Respublikasında ümumi daxili məhsulun strukturunda dövlət maliyyəsinin təşkilində fiskal siyasətinin roluna cədvəl 1-də nəzər yetirək.

**Cədvəl 1: Ümumi daxili məhsulun strukturunda dövlət maliyyəsinin təşkilində fiskal siyasət**

| Göstəricilər | Mln.manatla | % nisbətində |
|---|---|---|
| O cümlədən : | | |
| Ev təsərrüfatlarının istehlakı | 42144.5 | 52.8% |
| Dövlət idarələrinin istehlakı (dövlət xərcləmələri) | 8113.4 | 10.2% |
| qeyri-kommersiya təşkilatlarının istehlakı | 295 | 0.4% |
| Əsas kapitala investisiya qoyuluşları | 16019.6 | 20% |
| Xalis ixrac | 13224.8 | 16.6% |

| | | |
|---|---|---|
| Cəmi | 79797.3 | 100% |
| ÜDM | 79797.3 | |

**Mənbə:** https://www.stat.gov.az - Azərbaycan Dövlət Statistika Komitəsinin məlumat bazası əsasında müəllif tərəfindən hazırlanmışdır.

Cədvəl 1-dən göründüyü kimi, 2019-ci ildə ümumi daxili məhsulun 10.2 faizi dövlət sektorunun istehlakı hesabına baş verib. Başqa sözlə, ÜDM-in dinamikası ilə dövlət xərcləmələri arasında ciddi korelyasiya vardır. Məhz bunun nəticəsidir ki, hazırda daha asan inkişaf modeli kimi dövlət xərcləmələrinin kəskin artırılması yolu ilə iqtisadiyyatın inkişafının sürətləndirilməsinə çalışılır. Lakin, uzunmüddətli dövr üçün bu siyasətin ciddi riskləri vardır. Beləki, dövlət xərcləmələrinin artması büdcə kəsirini də paralel olaraq artırır. Bu isə ölkənin maliyyə dayanıqlığı üçün potensial təhdiddir. Xüsusilə də, böhran zamanı bu risk ən sərt formada özünü büruzə verir.

Həmçinin sürətli dövlət xərcləmələrinin sonu adətən kütləvi pul emisiyası ilə nəticələnir ki, bu da öz növbəsində inflyasiya və devalvasiya üçün əlverişli mühit yaradır. Beləliklə, səmərəli vergi siyasətinin həyata keçirilməsi üçün vergi yükünün effektivliyinin qiymətləndirilməsi əsas şərtlərdən biridir.

Vergilər istənilən halda (birbaşa və dolayı) məcmu tələbə təsir edir. Vergi siyasəti və məcmu tələb arasında korelyasiya müxtəlif istiqamətlidir. Beləki, vergilər azaldığı halda aşağıdakılar baş verir:

- Büdcə gəlirləri azalır və dolayısı ilə dövlət sektorunun istehlakı azalır. Yəni, dövlət sektoru yaradılan əlavə dəyərdə zəif iştirak edir.
- Əhalinin və şirkətlərin xalis gəliri artır.

Nəticədə əhalinin alıcılıq qabilliyyəti yüksəlir və şirkətlərin investisiya potensialı artır. ÜDM-in iki komponenti üzrə artım müşahidə edilir. Birinci hal gəlirlərin yenidən bölüşdürülməsi, infrastrukturun təkmilləşdirilməsi üçün geniş imkanlar yaradırsa, ikinci halda artan sərmayə qoyuluşları yeni iş yerləri, əlavə dəyər və daha çox gəlir yaradır. Birinci ilə müqayisədə ikinci halda gəlir generasiyası üçün əlverişli mühit yaranır. Bununla belə dövrümüzdə uğurlu model bu ikisi arasında qızıl tarazlığın müəyyən edilməsi ilə mümkündür. Yuxarıda sadalananlarla yanaşı nəzərə almaq lazımdır ki, aşağı vergi dərəcələri iqtisadi aktivliyi artırır. Çünki, biznes subyektləri vergiləri xərc hesab edir. Xərcin artması halında iqtisadi fəaliyyət üçün stimul azalır. Bu isə dolayısı ilə ÜDM-in və məşğulluğun azalmasına,

dövlətin müxtəlif sosial proqramlar çərçivəsində xərclərin artmasına, yaranan xərc yükünün qarşılanması üçün təkrar vergilərin artırılmasına səbəb olur. Sonda isə yeganə variant pul emissiyası olur.

Ölkəmizdə fiskal siyasət konstitutsional, qanuni və ya qaydalara əsaslanan məhdudiyyətlər çərçivəsində olması nəzərdə tutulur.

Fiskal qaydalar rəqəmsal və rəqəmsal olmayan iki əsas qrupa bölünür. Rəqəmsal qaydaların ən geniş yayılanlarına aşağıdakılar aiddir:

•Balanslı büdcə qaydaları – büdcə kəsiri və ya profisitinin ÜDM-ə nisbətinin məhdudlaşdırılması;

•Borclanma qaydaları – dövlətin borc yükünə məhdudiyyətlərin tətbiqi;

•Xərc qaydaları – fərqli xərc istiqamətlərinə tətbiq edilən məhdudiyyətlər;

•Gəlir qaydaları – fərqli gəlir mənbələrinə minimal və ya maksimal həddlərin təyin edilməsi.

Azərbaycan Respublikasının cari dövrünü əhatə edən fiskal siyasəti Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin imzaladığı "2021-ci il dövlət büdcəsi haqqında" imzaladığı Fərmanla həyata keçirilir.

"Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun 7-ci maddəsi ilə funksional təsnifatın bölmə və köməkçi bölmələri səviyyəsində ayrılan vəsaitin məbləği inzibati təsnifata uyğun olaraq dövlət büdcəsindən maliyyələşən, maliyyə yardımı alan təşkilatlar və tədbirlər üzrə qaydalar əsasən həyata keçirilir.

Azərbaycan Respublikasının dövlət maliyyəsinin təşkilində fiskal siyasətin normativ-hüquqi bazası Azərbaycan Respublikası Konstitusiyasına əsasən həyata keçirilir. Azərbaycan Respublikasında istehsal edilən və qiymətləri tənzimlənən məhsulların ixracı zamanı məhsulların kontrakt (satış) qiyməti ilə (ixracla bağlı xərclər çıxılmaqla) ölkədaxili topdansatış qiyməti arasındakı fərqdən dövlət büdcəsinə 30 faiz həcmind yığım tutulur və bu yığımlar vergi ödəyicisinin vergilər, faizlər, maliyyə sanksiyaları və inzibati cərimələr üzrə digər borclarının ödənilməsinə aid edilmir.

Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında qanununda dövlət büdcəsinin mərkəzləşdirilmiş gəlirləri aşağıdakı mənbələr hesabına formalaşdırılırmalıdır:

- 2021-ciil üçün hər bir şəhər və rayon üzrə müəyyən edilmiş gəlirlərin müvafiq şəhər və rayonların yerli xərclərindən artıq olan hissəsi (müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fonduna aid edilənlərdən başqa);
- gömrük rüsumları, Azərbaycan Respublikasının ərazisinə malların idxalına görə əlavə dəyər vergisi və Aksiz (Naxçıvan Muxtar Respublikasının gömrük orqanları tərəfindən toplanılanlardan başqa);
- dövlət əmlakının icarə yə verilməsindən daxil olmalar;
- xarici dövlətlərə verilmiş kreditlər üzrə daxil olmalar;
- səhmlərin də dövlətin payı olan müəssisələrdən alınan dividendlər, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandan (qurumdan) daxil olmalar;
- Dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fondundan transfert;
- Mərkəzi Bankın mənfəətindən ayırmalar, sair daxil olmalar, dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərindən maliyyələşdirilən büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxil olmalar;
- müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondunun gəlirləri tam həcmdə.

Müasir şəraitdə ölkəmizdə dövlət maliyyəsinin təşkilində fiskal siyasətin normativ-hüquqi bazasını həyata keçirən qurumlara sxem 4-də qeyd olunmuşdur:

**Sxem 4: Dövlət maliyyəsinin təşkilində fiskal siyasətin normativ-hüquqi bazasını həyata keçirən qurumlar**



**Mənbə: Müəllif tərəfindən tərtib olunub**

Respublikamızın fiskal siyasətinin qiymətləndirilməsi ilə bağlı bir sıra vacib nüansları nəzərdən keçirmək lazım gəlir. Fiskal siyasətin qiymətləndirilməsi üçün dinamik sıraların qurulması, ölkənin fiskal siyasətinin nəticələrinin səmərəliliyi və dayanıqlı olması istiqamətində fiskal siyasət strategiyasının düzgün təmin olunması durur.

## 2.2 Dövlət maliyyəsinin idarə olunmasında fiskal üsulların təsirinin qiymətləndirilməsi.

Azərbaycanda dövlət maliyyəsinin idarə edilməsi Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq müxtəlif səlahiyyətlərə malikdir. Təbii ki, səlahiyyətlərdən asılı olaraq, dövlət orqanları aşağıdakı qrupa bölünür:

1) ümumi səlahiyyətli orqanlar;
2) xüsusi səlahiyyətli orqanlar.

Azərbaycan Respublikası Maliyyə Nazirliyin ölkəmizdə dövlət maliyyəsinin idarə olunmasını həyata keçirən orqandır. Bu dövlət təşkilatı dövlət gəlirlərinin proqnozlaşdırılması prosesinin beynəlxalq standartlara uyğun modellər əsasında həyata keçirilməsini təmin edir. Eyni zamanda növbəti illər üzrə "Dövlət gəlirlərinin proqnozlaşdırılması və modelləşdirilməsi metodologiyası"nın dövlət gəlirlərinin proqnozlaşdırılması zamanı tətbiq edilməsini təmin edir. Dövlət maliyyəsinin idarə olunmasında fiskal üsulların təsirinin qiymətləndirilməsi məqsədilə aşağıdakı tədbirlər həyata keçirilir:

- "Dövlət gəlirlərinin proqnozlaşdırılması və modelləşdirilməsi metodologiyası"nı təsdiq etmək;
- Azərbaycan Respublikasında dövlət maliyyəsinin təşkilində fiskal siyasətinin normativ-hüquqi bazasının təmin etmək.

Qeyd etmək lazımdır ki, dövlət büdcəsinin gəlirləri proqnozlaşdırılan zaman qeyri-neft gəlirləri və neft gəlirləri arasında proporsiyalar da ciddi şəkildə proqnozlaşdırılır. Buna uyğun olaraq da ölkə daxilində fiskal siyasətin təmin edilməsində əlverişli vergi sisteminin tətbiq olunması həyata keçirilir.

Yuxarıda qeyd olunanlara əsasən dövlət büdcəsi gəlirlərini aşağıdakı prinsiplərə görə proqnozlaşdırılması məqsədəuyğundur:

- vahidlik;
- daxili balanslaşdırma;
- düzgünlük və reallıq;
- fasiləsizlik və ardıcıllıq.

Fiskal siyasətin səmərəliliyini təmin etmək məqsədilə ölkə daxilində hər bir vergi növü üzrə vergi elastikliyi aşağıdakı düsturla hesablanır:

$$\text{Log (vergi daxilolmaları)} = \log(\gamma) + \lambda \log(\text{vergi bazası}) \quad \textbf{(1)}$$

Düstur 1- də baxılan bərabərlik loqaritmik formada olub, əmsallar hər bir verginin elastikliyini əks etdirir.

Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsinin gəlirləri mədaxil mənbələri üzrə aşağıdakı cədvəldə göstərilmişdir:

**Cədvəl 2: Dövlət büdcəsinin gəlirləri mədaxil mənbələri üzrə**

| № | Gəlirlərin mənbələri | Məbləğ (min manatla) |
|---|---|---|
| 1 | Fiziki şəxslərin gəlir vergisi | 1 175 000,0 |
| 2 | Hüquqi şəxslərin mənfəət (gəlir) vergisi | 2 656 500,0 |
| 3 | Hüquqi şəxslərin torpaq vergisi | 45 000,0 |
| 4 | Hüquqi şəxslərin əmlak vergisi | 211 000,0 |
| 5 | Əlavə dəyər vergisi | 4 735 000,0 |
| 6 | Azərbaycan Respublikasının ərazisinə malların idxalına görə əlavə dəyər vergisi | 2 705 000,0 |
| 7 | Sadələşdirilmiş vergi | 380 000,0 |
| 8 | Aksizlər | 1 049 000,0 |
| 9 | Gömrük rüsumları | 950 000,0 |

**Mənbə: :** https://www.stat.gov.az - Azərbaycan Dövlət Statistika Komitəsinin məlumat bazası əsasında müəllif tərəfindən hazırlanmışdır.

Azərbaycanın 2020-cu il dövlət büdcəsinin gəlirləri 22 917,5 mln. manat, xərcləri 24 780,1 mln. manat proqnozlaşdırılmışdır. 2019-cu il dövlət büdcəsi gəlirləri üzrə proqnozun 7 316,0 mln. manat və ya 31,9 %-i İqtisad Nazirliyi yanında Dövlət Vergi Xidməti xətti ilə daxilolmaların, 11 364,3 mln. manatı və ya 49,6%-i

ARDNF-dan transfertlərin, 3 451,6 mln. manatı və ya 15,1%-i Dövlət Gömrük Komitəsinin xətti ilə daxilolmaların, 785,6 mln. manatı və ya 3,4%-i isə digər gəlirlərin payına düşmüşdür.

Qeyd edək ki, beynəlxalq maliyyə qurumları tərəfindən növbəti il üçün xam neftin 1 barrelinin 60-70 dollar ətrafında proqnozlaşdırılması və digər qlobal amilləri nəzərə almaqla 2019-cu il dövlət büdcəsinin neft gəlirlərinin hesablanmasında orta ixrac qiyməti 60 ABŞ dolları nəzərdə tutulmuşdur.

Dövlət Neft Fondundan dövlət büdcəsinə transfertlər çıxılmaqla dövlət büdcəsinin gəlirləri 11 553,2 mln. manat təşkil edir ki, bu da 2019-ci ilin proqnozu ilə müqayisədə 3,3%, 2018-ci ilin icrası ilə müqayisədə 10,9% çoxdur. 2020-cu il dövlət büdcəsinin gəlirlərinin 59,8%-i və ya 13 700,3 mln. manatı neft sektorunun, 40,2%-i və ya 9 217,2 mln. manatı qeyri-neft sektorunun payına düşmüşdür.Xatırladaq ki, 2018-ci il dürüstləşmiş dövlət büdcəsinin gəlirləri 22 149 mln. manata, xərclər 23 100 mln. manat təşkil etmişdir. 2019-cu il icmal büdcəsinin gəlirləri 29 724,6 mln. manat və ya cari ilə nisbətən 1 599,9 mln. manat və ya 5,7% çox, xərcləri 27 372,3 mln. manat və ya əvvəlki ilə nisbətən 797,0 mln. manat və ya 3, 0% çox nəzərdə tutulmuşdur.

Yuxarıda qeyd olunanlara şəkil 1-də nəzər yetirək.

**Şəkil 1:2018-ci il üzrə dövlət büdcəsi gəlirlərinin strukturu,ümumi yekunda xüsusi çəkisi %-lə**




**Mənbə:** www.finanse.gov.az- Azərbaycan Respublikası Maliyyə Nazirliyi məlumat bazası əsasında müəllif tərəfindən hazırlanmışdır.

Şəkil 1-dən göründüyü kimi büdcə-vergi siyasəti dövlətin maliyyə siyasətinin tərkib hissəsi olmaqla büdcə formalaşması siyasətini ifadə edir və bir çox ədəbiyyatlarda fiskal siyasətinin ayrılmaz tərkib hissəsi kimi göstərilir.

Azərbaycan Respublikasının Konstitusiyasına əsasən Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi Dövlət büdcəsini təsdiq edir və onun icrasına nəzarət edir. Azərbaycan Respublikasında dövlət maliyyəsinin idarə edilməsini ali qanunverici hakimiyyət orqanı olan Azərbaycan Respublikasının Milli Məclisi, Azərbaycan Respublikası Maliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi yanında Dövlət Vergi Xidməti, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi, Azərbaycan Respublikası Mərkəzi Bankı və müvafiq orqanların yerli təşkilatları həyata keçirir. Dövlətimizin maliyyə fəaliyyətini həyata keçirən ümumi səlahiyyətli orqan kimi, Milli Məclisin daxilində yaradılmış Hesablama Palatasının da fəaliyyətini xüsusilə qeyd etmək lazımdır.

Qlobollaşan dünyada sahibkarların müstəqil hərəkət etməsi heç də hər zaman uğurlu iqtisadi nəticələr vermir. Məhz bu baxımdan da dövlət müəyyən iqtisadi alətlər vasitəsilə sahibkarlara müəyyən müdaxilələr etməsi məqsədəuyğundur. Hal-

hazırda Azərbaycan Respublikasında da bazarın tənzimləmə metodlarını ağaıdakı kimi təsnifləşdirmək məqsədəuyğundur:

1) dövlət metodları;

2) qeyri-dövlət metodları.

Təbii ki, qeyd olunan hər metodun spesifik xüsusiyyətləri vardır. Belə ki, dövlət metodu zamanı, ölkənin bütün siyasi və iqtisadi həyatına təsir etmək imkanlarına malik olur. Bu da tamamilə ölkə əhalisinin iqtisadi həyatına öz təsirini göstərir. Dövlət istənilən formada hər bir vətəndaşının tələbatın ödənilməsi imkanlarını aşkara çıxarır. Dövlətin öz iqtisadiyyatını hansı tənzimləmə üsulları ilə həyata keçirilməsi maraq doğuran iqtisadi məsələlərdəndir.

Azərbaycan Respublikası da müstəqillikdən sonrakı dövrdə öz iqtisadiyyatını xüsusi mülkiyyətə və bazar mexanizminin fəaliyyət göstərməsi istiqamətində həyata keçirir.

Təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş siyasi-iqtisadi islahatların uğurlu davamı olaraq, ölkəmizin müasir iqtisadi şəraitdə siyasi-iqtisadi rolu əhəmiyyətli dərəcədə dəyişmişdir və regionun gücünə cevrilmişdir. Aparılan uğurlu islahatlar Azərbaycan Respublikasının siyasi-iqtisad kursunun davamçısı Azərbaycan Respublikasının prezidenti İlham Əliyev tərəfindən layiqincə davam etdirilmiş, daha da genişləndirilmiş və bazar mexanizmi ilə ölkə iqtisadiyyatının dövlət tərəfindən tənzimlənməsinin yeni modelini ərsəyə gətirmişdir.

Dünyanın aparıcı ölkələrində dövlət tənzimləməsi əsasən qanunlarla, iqtisadiyyatın əsas aləti olan vergilərlə və pul tədavülünü nizamlamaqla, istehsalın-infrastrukturunu (sənaye parklarının) təmin etməklə həyata keçirilir.

Yuxarıda qeyd olunanlar əsasında elə islahatlar aparılmalıdır ki, ölkədə müxtəlif təbəqələr arasında ayrıseçkilik müşayiət olunmasın. Yəni dövlətimiz tərəfindəndən iqtisadi islahatların yerinə yetirdiyi sosial vəzifəsinə xüsusi diqqətlə yanaşılmalıdır.

Dövlət sahibkarlıq fəaliyyəti üçün maraqlı olmayan təsərrüfatçılıq sahələrində işgüzarlığın həyata keçirilməsinə daima nəzarət edir. Bu sahələrə xüsusi investisiyaların tətbiq olunması sərfəli olmayan sahələr aid edilir.

Müasir iqtisadi şəraitdə ölkəmizin neft sektorundan əldə olunan gəlir əsasında yeni şaxəli iqtisadiyyatın inkişaf etdirilməsinə yönəldilməsi geniş vüsət almışdır.

1) Hüquqi və fiziki şəxslərin iqtisadi fəaliyyətlərinə dair hüquqi əsasların yaradılması;

2) Makroiqtisadi sabitləşdirmə siyasətinin yeridilməsi;

3) İqtisadi səmərəliliyin yüksəldilməsi üçün ehtiyatların yerləşdirilməsinə kömək edir;

4) Gəlirlərin bölüşdürülməsinə təsir etmə proqramının işlənib hazırlanması.

Hal-hazırda tam əminliklə demək olar ki, Azərbaycan Respublikasında makroiqtisadiyyatın tənzimlənməsinə dair qanunvericilik aktları və qaydalarının işlənib hazırlanması cənab Prezident İlham Əliyev tərəfindən lazımi səviyyədə həyata keçirilir.

Tam əminliklə demək olar ki, XX əsrin axırlarından etibarən Azərbaycan Respublikasında dövlətçilik olduqca möhkəmlənmiş, ondan ümumi mənafelərin və bütövlükdə iqtisadi sistemin mühafizəsi üçün istifadə olunmağa başlanmışdır.

Ölkəmizdə aparılan digər bir iqtisadi strategiya makroiqtisadiyyatın sabitliyinin təmin edilməsidir. Makroiqtisadi sabitliyin təmin edilməsinin prioritet məsələsi ölkədə sənaye tsiklini yumşaltmaqdan ibarətdir. Bu da özlüyündə respublikamızda işsizliyin, inflyasiyanın qarşısını almaq üçün konkret atılan iqtisadi addımlardandır.

Dövlət maliyyəsinin idarə olunmasında aşağıdakı fiskal metodlardan istifadə olunur:

1) iqtisadiyyatın vergi vasitəsilə tənzimlənməsi;

2) ölkənin tədiyyə balansında olan pul kütləsinin tənzimlənməsi.

Yuxarıda sadalanan bu metodlar vasitələrlə ayrı-ayrılıqda dövlət maliyyəsinin müəyyən iqtisadi siyasətini həyata keçirirlər. Ümumilikdə, bu metodlardan iqtisadiyyatın vergi-büdcə vasitəsilə tənzimlənməsində, dövlətin fiskal siyasətinin həyata keçirilməsində, ölkənin tədiyyə balansında olan pul kütləsinin tənzimlənməsində geniş şəkildə istifadə olunan əsas predmetlərdəndir.

İqtisadiyyatın dayanıqlığının təmin edilməsində ölkənin pul və maliyyə-kredit sisteminin xüsusi çəkisi vardı. Pul və maliyyə-kredit sistemi müdaxiləsi dedikdə çevik vergi, sözün əsl mənasın da düzgün kredit siyasəti yeritməkdən, ölkədə pul tədavülünü tənzimləməsi başa düşülür. Dünya təcrübəsi ilə tanış olanda dövlət maliyyəsinin müsbət təsiri kimi istehsalçıların təbəqələşməsinin, bunun təhlükəli şəkil almamasına yol verilməməsidir. Rəqabət qabiliyyətinin dünya təcrübəsində sınaqdan çıxmış və özünü doğrultmuş aşağıdakı metodlarını göstərmək olar:

1) gəlirdən mütərəqqi normalarla vergi tutulması;

2) istehlak minimumunu təmin edən məhsullara aşağı qiymətlər müəyyən olunması;

3) İxtisasçı kadrların hazırlanması və yenidən hazırlanması, yeni iş yerlərinin yaradılması,

Dövlət maliyyəsində əsasən aşağıdakı iqtisadi elementlər daim nəzarətdə saxlanılmalıdır:

- minimum əmək haqqı və pensiya təminatına zəmanət verilməsi;
- qiymətlərin səviyyəsi dəyişdikcə gəlirlərinin indeksləşdirilməsi;
- müvəqqəti işləməyən şəxslərə müavinat verilməsi və s.

Dövlət maliyyəsinin mühüm vəzifələrindən biri də ehtiyatların sosial cəhətdən ədalətli bölüşdürülməsinə kömək etməkdir. Belə iqtisadi siyasətin həyata keçirilməsi makroiqtisadi sabitliyin təmin edilməsinin başlıca tərəflərindəndir.

Qlobollaşan dünyada iqtisadiyyatın normal fəaliyyət göstərməsi dövlətin ayrılmaz tərkib hissəsi olduğuna görə onun tənzimlənməsi metodları daim təkmilləşdirilməlidir, qabaqcıl təcrübədən geniş istifadə olunnalıdır və konkret şəraitdən asılı olaraq tədbirlər görülməlidir.

Azərbaycan Respublikası Maliyyə Nazirliyi büdcə xərcləri və vergi sistemi ilə bağlı elə tənzimləyici siyasəti həyata keçirir ki, bu da son nəticədə milli gəlirin və xərcləmələrin strukturuna və yenidən bölgüsünə təsir edir. Fiskal siyasət dedikdə, dövlət xərclərinin və vergitutmanın səviyyəsinin dəyişdirilməsi istiqamətində dövlət orqanlarının həyata keçirdiyi tədbirlərin məcmusu başa

düşülür. Fiskal siyasətin əsas istiqaməti kimi, dövlət xərclərinin maliyyələşdirilməsini təmin etmək üçün, ayrı-ayrı fiziki və hüquqi şəxslərin gəlirlərinin müəyyən hissəsinin dövlət büdcəsinə cəlb edilməsini qeyd etmək olar. Beynəlxalq praktikada vergi dərəcələrinin artırılması və ya büdcə xərclərinin kəskin azaldılması fiskal siyasəti gərginləşdirən amillər kimi nəzərdən keçirilir. Fiskal siyasətdən optimal nəticə əldə etmək üçün vergi dərəcələrinin dəyişməsinin işgüzar aktivliyə, büdcə xərclərindəki dəyişikliklərin inflyasiya və faiz dərəcələrinə, büdcə kəsirinin isə makroiqtisadi tarazlığa təsiri nəzərə alınmalıdır. Fiskal siyasət iqtisadi tsikllərdən və monetar siyasətdən də asılıdır. Müasir fiskal siyasət əsasən dövlətin maliyyə resurslarının istifadəsini, maliyyələşdirmə metodlarını və dövlət büdcəsinin doldurulması mənbələrini öyrənir. Tarixi şəraitdən asılı olaraq hər bir ölkənin fiskal siyasətinin öz xüsusiyyətləri var.

# III FƏSİL.

# DÖVLƏT MALİYYƏSİNİN İDARƏ OLUNMASINDA FİSKAL QAYDALARIN TƏŞKİLİNİN PERSPEKTİV İNKİŞAF İSTİQAMƏTLƏRİ.

## 3.1.Fiskal idarəetmənin dövlət maliyyəsinə təsirinin proqnozlaşdırılması.

Müasir dünyamızda hər bir inkişaf etmiş dövlətin əsas iqtisadi məqsədi öz fiskal siyasətini düzgün təşkil etməkdən ibarətdir. Fiskal siyasətin əsas predmetini dövlət xərcləri və vergitutmanın səviyyəsinin dəyişdirilməsi istiqamətində dövlət orqanlarının həyata keçirdiyi tədbirlərin məcmusu təşkil edir.

Azərbaycan Respublikasında da makroiqtisadi tənzimləmənin əsas vasitələrindən biri fiskal siyasət durur. Dövlət gəlirlərinin və xərclərinin köməyi ilə fiskal siyasətin iqtisadiyyata təsiri mexanizmləri müəyyənləşdirilir (Y.A.Kəlbiyev., "Vergi siyasətinin konseptual əsasları və praktiki əsasları". Bakı, "İqtisad Universiteti" Nəşriyyatı, 2012, 488 s.). Eyni zamanda ölkədə səmərəli vergi islahatlarının aparılması prioritet iqtisadi məsələlərindəndir.

Ümumilikdə, fiskal siyasət iqtisadi baxımından dövlət maliyyəsinin tərkib hissəsidir. Bu baxımdan fiskal idarəetmənin işlənməsi çox mürəkkəb və uzun prosesdir. Fiskal siyasət hazırlanarkən dövlətin maliyyə resursları, dövlətin

qarşısında qoyduğu məqsədlər və dövlət maliyyəsinin proqnozlaşdırılması nəzərə alınır.

Fiskal idarəetmənin dövlət maliyyəsinə təsirinin proqnozlaşdırılması zamanı müxtəlif təsnifləşdirilimiş metodlardan istifadə edilir. Birinci təsnifləşdirməyə uyğun olaraq metodları:

a) ümumi metodlar;

b) təsadüfi, qeyri-tipik, istisna təşkil edən metodlar;

c) xüsusi metodlara ayırmaq olar.

Ümumi metodlara - təfəkkür, sistem metodları, ictimai təkrar istehsal nəzəriyyəsi aid edilə bilər. Sosial iqtisadi inkişafın dövlət tənzimlənməsində təsadüfi və qeyri-tipik istisna təşkil edən metodlardan da geniş istifadə olunur. Bunlar statistik və iqtisadi-riyazi metodlardan ibarətdir. İqtisadi təhlildə çoxlu sayda statistik metodlardan istifadə olunsa da, tənzimləməyə daha çox uyğun gələnlər aşağıdakılardır:

- ekstropolyasiya metodu, iqtisadi qruplaşdırma metodu, indeks metodu, büdcə metodu, kredit metodları;

- balans metodu, məqsədli proqram metodu, normativ metod və s.

Fiskal idarəetmənin dövlət maliyyəsinə təsirinin proqnozlaşdırılması zamanı istifadə olunan metodların digər təsnifləşdirilməsi onların sosial-iqtisadi proseslərə təsir səviyyəsi və dərəcəsi ilə əlaqədar aparılır. Bu zaman iqtisadiyyatın dövlət tənzimlənməsinin metodları, ilkin informasiyanın alınması, təhlili, habelə dövlət tənzimlənməsinin birbaşa və dolayı metodlarına bölünür (Y.A.Kəlbiyev., "Vergi siyasətinin konseptual əsasları və praktiki əsasları". Bakı, "İqtisad Universiteti" Nəşriyyatı, 2012, 488 s.).

Dövlət iqtisadiyyatda baş verən prosesləri təhlil etmək üçün, ilk növbə də müasir vəziyyəti ifadə edən informasiyanı toplayır. Daha sonra bu informasiyaya əsasən- keçmişlə müasir dövrü müqayisə edərək təhlil aparır və gələcəyi proqnozlaşdırır. Bu metodlara aşağıdakılar daxildir:

1) Qruplaşdırma metodu: dövlət hər hansı bir problemi həll etmək üçün onu ilk növbədə qruplara ayırır.

2) Normativ metod: dövlət normalar təyin etməklə normativlər işləyib hazırlayır və bununla da tənzimləmədə onu əsas kimi götürür. Məsələn, minimal əməkhaqqı özü bir norma olub digər əmək haqqının səviyyələri ona əsasən təyin edilir.

3) İndeks metodu: indi ilə keçmişin müqayisəsidir. Məsələn, qiymət indeksinin təyini.

4) Sturukturlaşma metodu: bu zaman dövlət bir məqsədi bir neçə kiçik məqsədlərə bölür ki, buna da çox vaxt "məqsədlər ağacı" deyilir. Yəni, problemin həlli konkret məqsəddən daha sistemli məqsədlərə çatmağa doğru həyata keçirilir.

5) Sosial metodlar: bunlara misal olaraq sosial problemləri təyin etmək üçün istifadə olunan sorğu, anketləşdirmə, intervyu və s.-ni göstərmək olar.

6) Ekspert metodu: bu zaman dövlət həlli riyazi yolla mümkün olmayan problemlərin həllində mütəxəssis rəyindən istifadə edir.

Birbaşa və dolayı tənzimləmə metodları aşağıdakı kimi xarakterizə oluna bilər:

- Birbaşa (inzibati) tənzimləmə metodları - bunlar inzibati amirlik qaydasında tənzimləmə metodudur.

- Dolayı metodlar – bunlar iqtisadi tənzimləmə metodları olmaqla vəhdət halında tətbiqi edilir. İnzibati metodların tətbiqi aşağıdakı hallarda qaçılmaz və alternativsiz sayılır:

– bazar proseslərinin iqtisadi tənzimləyiciləri səmərə vermədikdə;

– normativ və standartların tərtibi və onlara dövlət nəzarətinin təmini zamanı;

– dünya təsərrüfat əlaqələrində milli maraqların qorunmasını təmin etmək məqsədilə.

Birbaşa metodlara aşağıdakıları aid edirlər:

1) Dövlət proqnozlarının, proqramlarının və planlarının işlənib hazırlanması və tətbiqi;

2) Dövlət sahibkarlığının inkişaf etdirilməsi və tətbiqi;

3) Dövlət sifarişləri və kontrakt sistemləri.

Müasir iqtisadi şəraitdə dövlətin iqtisadiyyatı idarəetmə və təsir vasitələri aşağıdakılardır:

1) proqnozlar;

2) fərdi proqramlar;

3) kompleks proqnozlar;

4) proqramlar;

5) məqsədli proqramlar;

6) kompleks proqramlar;

7) dövlətin maliyyə planı (dövlət büdcəsi);

8) yerli büdcələr və ya bələdiyyə büdcələri;

9) indiqativ planlar.

Dövlətin həyata keçirdiyi bu proqnozlaşdırma vasitələri çox vaxt birbaşa tənzimləmə aləti kimi çıxış edir (www.chamber.az - Azərbaycan Ticarət və Sənaye Palatası). Bu zaman dövlət əsas problemləri müəyyənləşdirməklə proqramlar vasitəsilə müəyyən dövr ərzində onların aradan qaldırılmasına nail olur. Dövlət proqnozlar vasitəsilə həyata keçirilən tədbirləri təyin etməklə iqtisadiyyata məqsədyönlü təsir göstərir. Bu zaman dövlət tərəfindən qəbul olunan proqnozlar iqtisadi və sosial fəaliyyətin müəyyən sahələrini əhatə edə bilər. Proqnoz vasitəsilə dövlət proporsional inkişafa nail olur.

Müxtəlif dövlətlərdə dövlət sahibkarlığının həcminin müxtəlif olmasına baxmayaraq, onun vasitəsilə dövlət iqtisadiyyatında mövcud olan problemləri həll etməyə çalışır. Dövlət sahibkarlığı dövlət müəssisələrinin fəaliyyəti nəticəsində həyata keçirilməklə, ölkədə zəruri olan, strateji əhəmiyyət kəsb edən və əhalinin tələbatını ödəyən məhsulların istehsal olunmasına da şərait yaradır.

Bəzən iqtisadiyyatda dövlət əhəmiyyəti olan və ölkənin iqtisadi təhlükəsizliyi üçün vacib sayılan müəssisələr fəaliyyət göstərir ki, onlar rəqabət qabiliyyətli olmur (www.chamber.az - Azərbaycan Ticarət və Sənaye Palatası). Bu müəssisələrin fəaliyyət göstərməsini təmin etmək üçün dövlət sifarişlər sistemindən istifadə edir.

Fiskal idarəetmənin dövlət maliyyəsinə təsirinin proqnozlaşdırılması səviyyəli müxtəlif bazarlarda həyata keçirilə bilir. Bu zaman aşağıdakı əsas prinsiplərə əməl edilməlidir:

- rəqabətqabiliyyətlilik,
- qənaətlilik,
- səmərəlilik.

Bəzən dövlət maliyyəsinə təsir məqsədilə müəyyən həvəsləndirmə tədbirlərindən də istifadə edir. Bu həvəsləndirmə tədbirlərinə aşağıdakıları misal göstərmək olar:

- müəssisələrə maliyyə köməyinin edilməsi,
- enerji daşıyıcılarının qiymətlərində güzəştlərin tətbiqi,
- vergi güzəştləri və vergidən azad edilmə və s.

Müasir bazar iqtisadiyyatı şəraitində fiskal idarəetmənin dövlət maliyyəsinə təsirinin proqnozlaşdırılması zamanı əsasən büdcənin gəlirlər bölümünün mahiyyəti sistemli olaraq təsvir olunur. Bunun da əsas səbəbi müəyyən illər üzrə respublikamızda büdcənin idarə edilməsi sahəsində mühüm dəyişikliklər həyata keçirilməsidir. Bu dəyişikliklər hər şeydən əvvəl büdcənin gəlirlər bölümünün geniş sisteminin yaradılması ilə bağlıdır. Büdcə gəlirləri iqtisadiyyatın “qan-damar sistemi”nı təşkil edir.

Hal-hazırda ölkəmizdə tətbiq olunan vergilərin tərkibi çox müxtəlifdir. Hər bir ölkədə tətbiq edilən vergilər həmin ölkənin vergi sistemini təşkil edir. Vergilər müxtəlif olduğu və hər bir vergi növünün özünəməxsus xüsusiyyəti olduğu üçün bu vergilərin təsnifləşdirilməsinə böyük ehtiyac vardır.

Dövlət gəlirlərinin idarə edilməsinə taktiki siyasətin uyğunlaşdırılması dedikdə, ilk növbədə mövcud gəlir mənbələrinin xərclərə uyğun olaraq tənzimlənməsi başa düşülür. Büdcə gəlirləri içərisində ən çox yer alan vergi gəlirlərinin mənbələri, gömrük gəlirlərinin mənbələri və başqa gəlir mənbələri aiddir. Bu isə o anlama gəlir ki, büdcənin vergi gəlirləri əmlak vergisi, əlavə dəyər vergisi, mənfəət vergisi, aksizlər, torpaq vergisi, fiziki şəxslərin gəlir vergisi və.s iqtisadi elementlər hesabına formalaşır.

Vergi siyasətinin formalaşması və həyata keçirilməsi ümumi iqtisadi inkişafın əsas şərtlərindəndir. Bu məqsədlə vergi işinin təşkilində inkişaf etmiş ölkələrin təcrübəsindən istifadə edilməsi və mükəmməl vergi siyasətinin formalaşdırılması çox vacibdir. Vergi siyasəti nəticə etibarı ilə elə bir sistemin formalaşdırılmasına gətirib çıxarmalıdır ki, bu sistem iqtisadi tənzimləmə funksiyasını normal şəkildə həyata keçirə bilsin. Məhz buna görə, səmərəli fəaliyyət göstərən mükəmməl vergi siyasətinə çox böyük ehtiyac vardır.

Vergilər dövlət xərclərinin təmin edilməsi baxımından ən demokratik maliyyələşdirmə üsuludur, desək yanılmarıq.

Müasir şəraitdə dövlətin iqtisadi funksiyaları ciddi dəyişikliklərə məruz qalmışdır. İnzibati-amirlik iqtisadiyyatında dövlət iri mülkiyyətçi olduğu halda, indi yalnız qanunamüvafiq olaraq iqtisadi proseslərin əlaqələndiricisi və tənzimləyicisi rolunu oynayır.

Dövlət büdcəsi xərclərinin xüsusiyyəti, dövlətin fəaliyyət sferasında olan tələblərin ödənilməsində özünü göstərir. Dövlət xərcləri cəmiyyətin daha vacib tələblərini, məsələn, iqtisadiyyatın inkişafı, sosial müdafiə, dövlət idarəetmə fəaliyyətinin həyata keçirilməsi kimi tədbirləri təmin etmək üçün mövcuddur.

Büdcə xərclərinin köməyi ilə dövlət maddi istehsal və qeyri-istehsal sferası arasında pul vəsaitlərinin bölüşdürülməsini idarə edir. Büdcə xərcləri özünün bölüşdürücü xarakterinə əsasən iqtisadiyyatın və sosial proseslərin dövlət idarəçiliyində mühüm rol oynayır.

Büdcə xərclərinin idarə edilməsi dövlət gəlirlərinin idarə edilməsi ilə sıx bağlıdır. Belə ki, büdcə xərclərinin həcmi büdcə gəlirləri ilə məhdudlaşdırılır. Digər tərəfdən, büdcə xərclərinin azaldılması da sonrakı illərdə öz mənfi təsirini göstərərsə, büdcə xərclərinin elə optimal həcmini və müddətini müəyyən etmək lazımdır ki, minimum xərclərlə sosial-iqtisadi vəzifələrin həllini təmin etmək mümkün olsun.

Respublikamızda dövlət büdcəsinin xərclərinin sosial və investisiya yönümlülüyü istiqamətində büdcə siyasəti yeridilir. Büdcə xərclərinin ən mühüm hissəsi, təqribən 20%-ə qədəri təhsil xərclərinin payına düşür. Sosial müdafiə

xərclərinə və sosial təminat xərclərinə müvafiq olaraq 11% və 5% düşür. Büdcə xərclərinin idarə edilməsindən danışarkən büdcə sistemini xüsusi qeyd etmək lazımdır. Büdcə sistemi - büdcə sferasında mərkəzi icra hakimiyyəti orqanları ilə yerli özünü idarəetmə orqanları arasında səlahiyyətlərin bölüşdürülməsidir. Bu istiqamətdə yerli xərclərin maliyyələşdirilməsi üçün bəzi gəlir növlərinin, məsələn, fiziki şəxslərin torpaq vergisi, fiziki şəxslərin əmlak vergisi, yerli əhəmiyyətli xammal və tikinti materiallarından tutulan mədən vergisi və s. gəlirlərin yığılması və həmin vəsaitlərə sərəncam verilməsi səlahiyyətinin bələdiyyələrə verilməsini qeyd etmək olar.

Ölkəmizdə də fiskal idarəetmənin proqnozlaşdırılmasının təkmilləşdirilməsi məsələləri dövlət idarəetməsi məsələləri ilə vəhdətdə həyata keçirilir. Bu zaman dövlət maliyyəsinin proqnozlaşdırılmasında aşağıdakı islahatların aparılması məqsədəuyğun olardı:

• büdcə vəsaitlərinin sərəncamçılarının strateji məqsədlərinə, proqramlarına uyğun olaraq büdcə xərclərinin bölgüsünü təmin edən layihənin hazırlanması mexanizmi yaradılmalıdır;

• ortamüddətli və illik büdcə tsiklindən və xərc istiqamətləri üzrə perspektiv layihələrdən istifadə edilməlidir;

• büdcə prosesi monitorinq sisteminə daxil edilməlidir.

Büdcə vəsaitlərinin sərəncamçılarıın əsas vəzifəsi Azərbaycan Respublikasında büdcə sisteminin təşkilinin, büdcələrin tərtibi, təsdiqi, icrası və onların icrasına nəzarətin təşkilati, hüquqi və iqtisadi əsaslarını, habelə dövlət büdcəsi ilə büdcədənkənar dövlət fondlarının, yerli büdcələrin qarşılıqlı əlaqələrinin əsas prinsiplərini müəyyən etməkdən ibarətdir.

Ortamüddətli və illik büdcə tsikli dedikdə Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşən aidiyyəti nazirlik, komitə, şirkət, baş idarə və digər büdcə təşkilatları xidmət etdikləri sahələr və xərc bölmələri üzrə dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilməsi nəzərdə tutulan məqsədli proqramları hazırlanması başa düşülür. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi ilə razılaşdırılıb sentyabr ayının 1-dək büdcə

sistemini Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edirlər. Müzakirə nəticələrində müsbət qəbul edildikdən sonra növbəti büdcə ili üzrə büdcə qaydasına uyğun hesablanmış icmal büdcə xərclərinin yuxarı həddi də daxil olmaqla, dövlət büdcəsinin və icmal büdcənin layihəsi, sonrakı üç il üçün icmal büdcənin göstəriciləri (büdcə qaydasına uyğun hesablanmış icmal büdcə xərclərinin yuxarı həddi nəzərə alınmaqla) və bu Qaydaların 3.5-ci və 3.6-cı bəndlərində göstərilən digər sənədlərlə birlikdə sentyabr ayının 25-dək Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən Azərbaycan Respublikasının Prezidentinə təqdim edilir. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi cari ilin sentyabr ayının 25-dən gec olmayaraq növbəti il üçün proqnozlaşdırılan büdcə xərclərinin iqtisadi və inzibati təsnifatlar üzrə bölgüsü barədə bu Qaydaların əlavəsi ilə müəyyən edilmiş forma üzrə məlumatı Azərbaycan Respublikasının Prezidentinə təqdim edir. Növbəti il üzrə dövlət büdcəsinin və icmal büdcəsinin layihələrinin və sonrakı üç il üçün icmal büdcəsinin tərtibi prosesində iştirak edən təşkilatlar tərəfindən qanunvericiliklə müəyyən edilən sənədlərin vaxtında Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim edilməməsi büdcənin tərtibi prosesinin pozulmasına səbəb olarsa, həmin təşkilatların vəzifəli şəxsləri qanunvericilikdə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

Büdcə prosesi monitorinq sisteminə büdcənin mahiyyəti, dövlət büdcəsinin sosial iqtisadi məzmunu daxildir. Bu zaman dövlət büdcəsinin iqtisadi inkişafda əhəmiyyəti və büdcənin dövlətin iqtisadi-sosial siyasi vəzifələrinin həyata keçirilməsində , xalqın həyat səviyyəsinin yüksəldilməsində, ölkənin müdafiə qabiliyyətinin möhkəmləndirilməsində rolu nəzərdə tutulur.

Nəzərə almaq lazımdır ki, dövlət tərəfindən təyin edilən iqtisadiyyatın vergi yükü ağır olduqda iqtisadi subyektlərin istehsal aktivliyi aşağı düşür, yüngül olduqda isə dövlət büdcəsinin gəlirlər hissəsinin formalaşmasında müəyyən problemlər ortaya çıxır ki, bu da büdcə kəsiri ilə müşayiət olunur.

Ümumiyyətlə, inkişaf etmiş ölkələrin uzunmüddətli və zəngin təcrübəsi göstərir ki, həddən artıq ağır olan fiskal təzyiq bir sıra neqativ halların yaranmasına

səbəb olur. Fiskal siyasətin səmərəliliyi qiymətləndirilərkən ilk növbədə istehsalın həcmi ilə vergi yükü arasında optimal həddin müəyyənləşdirilməsi durur.

Vergi yükünün orta səviyyəsinin nisbətən elə də yüksək olmadığı zaman ölkədə ayrı-ayrı əhali qrupları, ayrı-ayrı müəssisələr həddindən artıq yüklənə bilər, yaxud əksinə, vergi yükünün orta səviyyəsinin yüksək olduğu zaman isə onun daha düzgün paylanması nəticəsində nisbətən mülayim ola bilər. Ona görə də vergitutma ağırlığının hesablanması zamanı yalnız bir universal yanaşma ilə məhdudlaşmaq düzgün deyildir. Burada vergi yükünün qiymətləndirilməsində, onun istehsalın inkişaf imkanlarına təsirinin müəyyən edilməsində sistemli yanaşma zəruridir.

Milli iqtisadiyyatımızın qarşısında duran və həd zaman təkmilləşdirilməsi zəruri olan məsələlərdən biri də büdcə proqnozlaşdırılması və icrası sisteminin təkmilləşdirilməsi və operativliyinin təmin olunması, səmərəliliyinin optimallaşdırılmasıdır.

Büdcə proqnozlaşdırılması "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası qanunun 11-ci madəsinin "Dövlət büdcəsinin tərtibi prosesi və büdcə təqvimi" maddəsinə əsasən həyata keçirilir. Büdcə proqnozlaşdırılması respublikanın iqtisadi-sosial inkişaf proqramı və toplu maliyyə planlaşdırılması ilə sıx əlaqədədir. Uzunmüddətli icmal maliyyə planlaşdırılmasından fərqli olaraq büdcə proqnozlaşdırılması ünvanlı olur və büdcə ili üçün yəni bir ildən çox olmayan dövr üçün hesablanır. İcmal maliyyə balansı göstəricilərinin əsas hissəsini büdcə göstəriciləri təşkil etdiyi üçün perspektiv icmal maliyyə balansının tərtibi zamanı əsas büdcə göstəricilərinin proqnoz hesablamaları aparılmalıdır. Büdcə göstəricilərinin proqnozlaşdırılmasının hesablanmasında illik büdcə göstəricilərinin hesablanması ilə yanaşı metodoloji yanaşmanın da böyük əhəmiyyəti vardır.

Budcələrin illik və rüblük göstəriciləri iqtisadi və maliyə parametrlərinin birbaşa hesablamaları bazasında müəyyən edilir. Büdcənin icra edilməsi büdcə vəsaitlərinin yığılması və istifadəsi üzrə büdcə prosesinin mühüm mərhələsidir. Bu icra prosesində icra hakimiyyəti orqanları, maliyyə orqanları, kredit təşkilatları, hüquqi və fiziki şəxslər-vergi ödəyiciləri və vəsaiti alanlar iştirak edirlər.

Azərbaycan Respublikasında büdcələrin xəzinədarlıq vasitəsilə icra edilməsi müəyyənləşdirilmişdir.

Büdcə proqnozlaşdırılması və icrası sahəsində dövlət sektorunda istifadə olunan məlumatlar dövlət maliyyəsini idarə edilməsi prosesinə məsuliyyət daşıyan orqanlar tərəfindən onlara həvalə edilmiş funksiyalar həyata keçirilərkən (məsələn büdcənin hazırlanması, büdcə xərclərini icrası, gəlirlərin yığılması və s.) formalaşır. Bu funksional fəaliyyətin əksəriyyəti çox məhdud vaxt dövründə bütün ölkə ərazisində böyük miqdarda əməliyyatların işlənilməsini tələb edir ki, bu məluatları sənədlərdən əllə yığılması və tələb edilən formada sistemləşdirilməsi çox çətin, mürəkkəb və böyük əməktutumlu işdir. Onun səmərəli təşkil olunması bəzən qeyri-mümkün olur. Belə bir şəraitdə yəni avtomatlaşdırılmış idarəetmə sisteminin mövcud olmadığı halda iqtisadi idarəetmə üçün lazım olan əsas məlumatların operativlik və dəqiqlik səviyyəsini əldə etmək mümkün deyil. Yeni informasiya texnologiyalarının istifadəsi ilə yaradılan informasiya sistemləri dövlət sektorunda büdcənin proqnozlaşdırılması və icrası prosesində idarəetmə qərarlarının qəbulu baxımından opetrativ və etibarlı məlumatlarla təmin edir və Maliyyə Nazirliyinə bütün ölkə miqyasında regional xəzinədarlıq və vergi orqanlarından daxil olan məlumatların operativ yığılmasına və onları konsolidə edilməsinə imkan verir.

Ölkəmizdə səmərəli dövlət maliyyə idarəetmə sisteminin yaradılması və tətbiqi üçün aşağıdakı iqtisadi tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur:

- dövlət maliyyəsinin idarə edilməsi prosesi üzrə həyata keçirilən islahatların dəqiq əlaqələndirilməsi və bu islahatlar əsasında informasiya sistemini hazırlamaq.
- sistemin funksional və texniki xarakteristikasının bu proseslərin tələblərilə razılaşdırmaq;
- dövlət maliyyəsinin idarə olunmasının təmin olunması üçün lazım olan bütün alt sistemlərin inteqrasiya edilməsi üzrə müvafiq qaydaların hazırlamaq.

## 3.2. Dövlət maliyyəsinin idarə olunmasında fiskal siyasətin həyata keçirilməsi üzrə nəzarətin gücləndirilməsi istiqamətləri.

Dövlət maliyyəsinin idarə edilməsində real sektorun üzərinə böyük yük düşür. İnkişaf etmiş ölkələrin təcrübəsindən də aydın görünür ki, real sektor ümumi iqtisadi siyasətin bazisini təşkil edir və dövlət maliyyə siyasətinin cari fəaliyyətinə təsir göstərərək üstqurum rolunu oynayır.

Dövlət maliyyəsinin idarə olunmasında əsas iqtisadi hədəf aşağıdakılardan ibarətdir:

- inflyasiyanın səviyyəsinin 10%-i keçməməsi;
- real mübadilə kursunun alıcılıq qabiliyyətinə münasib olaraq stabilləşməsi;
- istehsalda canlanmanın hiss olunması.

Yuxarıda sadalanan bu iqtisadi elementlər uzunmüddətli perspektivə hesablanmağın vacib şərtidir. Hal-hazırda ölkəmizdə dövlət maliyyəsinin idarə olunmasında effektiv fiskal siyasətin həyata keçirilməsi əsas iqtisadi hədəflərdəndir. Bundan ötrü fiskal siyasətin məzmununu ciddi şəkildə təhlil etmək lazımdır.

**Cədvəl 3: Fiskal siyasətin məzmunu**

| Fiskal siyasətin növləri | Məqsəd | Nəticələr |
|---|---|---|
| Avtomatik | Gəlirlərin və istehsalın həcminin dəyişilməsi nəticəsində vergi daxilolmalarının və dövlət xərclərinin avtomatik dəyişilməsinin təmin edilməsi | İqtisadi tənəzzül dövründə hətta proqressiv vergi dərəcələri tətbiq edilməsinə baxmayaraq gəlirlərin azalması nəticəsində vergilərin həcmi kəskin azalır. |
| Diskresion | İqtisadi tsiklin nəticələrinin yumşaldılması:istehsala, sosial sferaya əlavə dövlət vəsaitlərinin qoyuluşu, vergi sisteminin təkmilləşdirilməsi | Həm mənfi, həm də müsbət nəticələr gözlənilir. |

**Mənbə:** Müəllif tərəfindən tərtib olunmuşdur.

Nəzərə almaq lazımdır ki, büdcə kəsiri ilə müşayiət olunan büdcə siyasəti Mərkəzi Banka pul axınlarını iqtisadiyyatın real sektoruna yönəltməyə imkan vermir. Nəticədə isə iqtisadiyyatda barter əməliyyatlarının və ümumi ödəməmələrin səviyyəsi artır. Beləliklə, pul-kredit siyasəti daha əsaslı amillərlə

məhdudlaşır və büdcə-vergi siyasətinin səmərəliliyinin artırılmasında bir o qədər də yardımçı ola bilmir.

Dövlət maliyyə siyasətinin perspektivləri təkcə hökumətin iradəsindən asılı deyildir, o, eyni zamanda bir sıra daxili və xarici iqtisadi və siyasi amillərlə şərtlənir. İstənilən halda, cari maliyyə şəraitini qiymətləndirərək dərk etmək lazımdır ki, iqtisadi siyasətin əsas məqsədi - iqtisadi artımı və xalqın rifahının yüksəlməsini təmin etmək üçün dərin iqtisadi dəyişikliklərin həyata keçirilməsi zəruridir.

Dövlət büdcəsi xərcləri siyasəti sahəsində maliyyə imkanlarının sərt sərhədlərinin gözlənilməsinə əməl etmək lazımdır (Thomas F. Dernburg, "Makroiktisat ve Açık Ekonomi Makroiktisadı" , İktisatça, Çev. Yahya S. Tezel, Kış 1995, s. 25.). Bu sərhədlərin parametrləri təkcə inflyasiyanın faktiki tempi və istehsalın səviyyəsinin azalması ölçüləri ilə deyil, həm də dövlət büdcəsinin gəlir bazasının dövlətin minimum funksiyalarının yerinə yetirilməsinə uyğunluğu ilə ölçülür. Büdcə kəsirinin maliyyələşdirilməsində və daxili dövlət borclarına xidmət göstərilməsində uzunmüddətli perspektiv istiqamətin seçilməsi vacibdir. Dövlət büdcəsi kəsirinin maliyyələşdirilməsini Mərkəzi Bankın kreditlərindən tədricən qiymətli kağızlar bazarı vasitəsilə borclanmanın müxtəlif formalarına keçirmək məqsədəmüvafiqdir. Son illərdə respublikamızda həyata keçirilən məqsədyönlü tədbirlər və islahatlar nəticəsində ölkəmizin çoxşaxəli sosial-iqtisadi inkişafı və beynəlxalq iqtisadi sistemə inteqrasiyası üçün münbit şərait yaradılmışdır. İqtisadiyyatda ciddi irəliliyişlər əldə edilmiş, bir çox sahələrdə, xüsusilə makroiqtisadi göstəricilərin artımında yüksək nəticələrə nail olunmuşdur. Təkcə onu qeyd etmək kifayətdir ki, 2015-2020-ci illərdə ölkədə Ümumi Daxili Məhsul istehsalının həcmi 60%, istehsala kapital qoyuluşu 2,8 dəfə, dövlət büdcəsinin gəlirləri 2,2 dəfə, xərcləri isə 2,0 dəfə artmışdır. Əhalinin sosial vəziyyətinə təsir edən əmək haqları və pensiyaların məbləğləri əhəmiyyətli dərəcədə yüksəlmişdir. (www.stat.gov.az).

Azərbaycan Respublikasında sahibkarlığın regionlarda daha sürətli inkişafı üçün dövlət himayəsinin artırılması və ona zəruri maliyyə dəstəyinin verilməsi ən aktual problemlərdən biridir.

**Cədvəl 4 : Azərbaycan iqtisadiyyatının əsas makroiqtisadi göstəricilər**

| Göstəricilər | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|
| Ümumi daxili məhsul, milyon manat | 59014,1 | 54380,0 | 60425,2 | 70337,8 | 80092,0 | 81896,2 |
| Büdcənin gəlirləri (milyon.manat) | 18400,6 | 17498,0 | 17505,7 | 16516,7 | 22508,9 | 24398,5 |
| Büdcənin xərcləri (milyon.manat) | 18709,0 | 17784,5 | 17751,3 | 17594,5 | 22731,6 | 24425,9 |
| Büdcə kəsiri (milyon.manat) | -308,4 | -286,5 | -245,6 | -1077,8 | -222,7 | -27,4 |

**Mənbə:** https://www.stat.gov.az - Azərbaycan Dövlət Statistika Komitəsinin məlumat bazası əsasında müəllif tərəfindən hazırlanmışdır.

Cədvəl 4-dən göründüyü kimi, son illərdə ÜDM-in sürətlə artımı büdcənin gəlir və xərclərinin dərhal artımına səbəb olmuşdur. Büdcə gəlirləri iqtisadi əlaqələri ifadə etməklə bütün mülkiyyətdən olan hüquqi və fiziki şəxslərin gəlirləri hesabına ölkənin büdcəsini yaradır. Büdcə gəlirlərinin yaradılması dövlət tədbirlərinin həyata keçirilməsində mühüm rol oynayır.

Büdcə xərclərində sosial sahələrə xərclərin əhəmiyyətini xüsusilə qeyd etmək lazımdır. Dövlət büdcəsi sosial yönümlüdür, ümumi xərclərin təqribən 50%-ə qədərini sosial xərclər, yəni təhsil, səhiyyə, sosial müdafiə, sosial təminat, mədəniyyət, incəsənət, mənzil-kommunal xərcləri təşkil edir. Dövlət xərclərinin, məsələn, icra hakimiyyəti orqanlarının saxlanılması, məhkəmə hakimiyyəti və prokurorluq orqanlarının saxlanılması və müdafiə xərclərinin tərkibində də sosial xərclər vardır.

Sosial infrastruktur əhalinin şəxsi tələbatını ödəməklə yanaşı, işçi qüvvəsinin təkrar istehsalı və istehsalın intensivləşdirilməsinin mühüm amili kimi çıxış edir. Dövlətin büdcə xərcləri iqtisadiyyatın bütün sahələrinə təsir edir. Bu təsir dövlət

xərclərini təmin edən maliyyə mənbələri ilə bağlıdır. Dövlət xərclərinin istehsala göstərdiyi təsir, əsasən, investisiya həcmi, istehsal məsrəfləri və məşğulluq fəaliyyətinin təsirinin məcmusundan ibarətdir.

Ölkədə aparılan büdcə-vergi siyasəti dövlət büdcəsi ilə yanaşı yerli büdcələrin gəlir və xərclərinin formalaşmasına da öz təsirini göstərməyə bilməz. Yerli özünüidarənin real gücünü müəyyən edən əsas göstəricilərdən biri kimi, bələdiyyə büdcələrinin məcmu büdcə xərclərindəki xüsusi çəkisini qəbul etmək mümkündür və bu cəhəti də qeyd etmək lazımdır ki, hal-hazırda bələdiyyələrin maliyyəsinin mərkəzləşmiş statistik uçotu aparılmayıb.

Yuxarıda qeyd olunanlardan belə bir nəticəyə gəlmək olar ki, ölkədə aparılan səmərəli büdcə-vergi siyasəti nəticədə dövlət və yerli özünüidarəetmə büdcələrinin gəlirlərinin tam formalaşmasına münbit şərait yaratmaq gücündədir.

## 3.3. Azərbaycan Respublikasında dövlət büdcəsinin təsnifatlaşmasında fiskal qaydaların təkmilləşdirilməsi.

Hal-hazırda ölkəmizin dövlət büdcəsinin gəlirləri üzrə şəffaflığın artırılmasını təmin edən qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində işlər davam etdirilir. Büdcə qanunvericiliyinə müvafiq olaraq büdcə-vergi sisteminə daxil olan bütün büdcə növləri sabit və ardıcıl daxil olan gəlir mənbəyinə malik olmalıdır. Ona görə də dövlət büdcəsinə daxil olan gəlirlər qanunvericilik əsasında büdcə həlqələri arasında bölüşdürülür. Bu məqsədlə büdcə həlqələri zəruri gəlir mənbəyi ilə təmin edilməklə, hər bir regionun sosial-iqtisadi inkişafı üçün lazımi məbləğdə maliyyə vəsaiti müəyyənləşdirilir.

Büdcə xərclərinin funksional təsnifatında ayrı-ayrı büdcə əməliyyatları üzrə tələb olunan vəsaitlərin xərc maddələri və yarımmaddələri arasında düzgün bölüşdürmələr həyata keçirilməlidir.

Qeyd edək ki, büdcə təsnifatında dünya təcrübəsində istifadə olunan Milli Hesablar Sistemindən, Beynəlxalq Maliyyə Statistikasının metodologiyasından, ayrı-ayrı dövlətlərdə tətbiq olunan təsnifatlardan istifadə edilməklə formalaşması

təsnifatın beynəlxalq standartlara cavab verməklə, büdcə göstəricilərinin, onun gəlir və xərclərinin uçotunun və iqtisadi istiqamətlərinin daha da aşkar və şəffaf həyata keçirilməsinə, büdcədən maliyyələşən və ya əlaqəsi olan dövlət və qeyri-dövlət orqanlarının funksiya və vəzifələrinin yerinə yetirilməsi üçün ayrılan vəsaitlərin istiqamətlərinin daha da konkretləşdirilməsinə imkan verə bilər.

Hal-hazırda ölkəmizdə aparılan uğurlu iqtisad-siyasi islahatlar Azərbaycan Respublikasının makroiqtisadi dayanıqlığının təmin edilməsinə yönəldilmişdir.

Azərbaycan Respublikasında büdcə-vergi siyasəti dövlətin büdcə xərcləri və vergi sistemi ilə bağlı tənzimləyici siyasətdir. Bu da son nəticədə ölkəmizdə milli gəlirin, xərclərin strukturuna və yenidən bölgüsünə təsir edir. İqtisadi termin olaraq büdcə-vergi siyasəti özlüyündə büdcə formalaşması siyasətini ifadə edir. Bir çox xarici iqtisadi ədəbiyyatlarda büdcə-vergi siyasəti fiskal siyasət kimi adlanır.

Fiskal siyasət dövlət xərclərinin və vergitutmanın səviyyəsinin özündə cəmləşdirir. Eyni zamanda həyata keçirilən iqtisadi islahatların dəyişdirilməsi istiqamətində dövlət orqanlarının həyata keçirdiyi tədbirlərin məcmusunu özündə birləşdirir. Fiskal siyasətin prioritet istiqaməti kimi dövlət xərclərinin maliyyələşdirilməsini müəyyən etmək durur. Azərbaycan Respublikasında fəaliyyət göstərən ayrı-ayrı fiziki və hüquqi şəxslərin gəlirlərinin vergi vasitəsilə müəyyən hissəsinin dövlət büdcəsinə cəlb edilir.

Praktikada fiskal siyasətlə vergi sistemi arasında birbaşa iqtisadi bağlılıq vardır. İstər reqressiv, istərsə də proqressiv vergi sistemindən geniş istifadə olunur. Bu əsasən ölkə iqtisadiyyatının real vəziyyətinə uyğun formalaşır.

Vergi dərəcələrinin artırılması və ya büdcə xərclərinin kəskin azaldılması fiskal siyasəti gərginləşdirən amillər kimi nəzərdən keçirilir. Fiskal siyasətdən optimal nəticənin əldə etmək üçün vergi dərəcələrinin dəyişməsinin aşağıdakı iqtisadi vəziyyətlərə təsiri nəzərə alınmalıdır:

- işgüzar aktivliyə;
- büdcə xərclərindəki dəyişikliklərə;
- inflyasiya təsiri;
- faiz dərəcələrinə;

- büdcə kəsirinə təsiri;
- makroiqtisadi tarazlığa təsiri nəzərə alınmalıdır.

Maraqlı odur ki, fiskal siyasət həm iqtisadi tsikllərlə, həm də monetar siyasətlə birbaşa əlaqədə olur (Y.A.Kəlbiyev., "Vergi siyasətinin konseptual əsasları və praktiki əsasları". Bakı, "İqtisad Universiteti" Nəşriyyatı, 2012, 488 s.). Büdcə-vergi siyasəti hansı məqsədlərdə və kimlər tərəfindən istifadə ediləcəyindən asılı olaraq milli iqtisadiyyatın dayanıqlığının təmin edilməsinə həm müsbət, həm də mənfi təsir göstərə bilər.

Fiskal idarəetmənin dövlət maliyyəsinə təsirinə ilk öncə büdcə siyasətinin dövlətin iqtisadi siyasətinin əsas həlqəsi kimi də baxmaq olar. Bu zaman büdcələrarası münasibətlərin səviyyəsi, büdcə gəlirlərinin formalaşdırılması, büdcə vəsaitlərinin istifadəsi üzrə hakimiyyət və idarəetmə orqanlarının səlahiyyətlərinin düzgün bölüşdürülməsi və büdcə prosesinin idarə edilməsinin keyfiyyət parametrlərinin düzgün seçilməsi əsas iqtisadi hədəflərdəndir.

Fiskal idarəetmənin dövlət maliyyəsinə təsirinin proqnozlaşdırılması nəzarət baxımından müxtəlif çeşidlidir. Belə ki, bu zaman büdcə hüququnun digər əsas prinsipi bütün proqnozlaşdırılan gəlir və xərclərə uyğun olaraq büdcənin tamlığının tələb edilməsidir. Bu prinsipə əsasən hökümət büdcədə nəzərdə tutulmayan gəlir və xərclərə malik olmamalıdır.

Bildiyimiz kimi, fiskal siyasət dövlət xərcləri və vergilərlə bağlı olan tənzimləmə sistemidir. Dövlət maliyyəsi isə dövlətçilik institutunu saxlamaq, habelə dövlət tərəfindən müəyyən mallar və xidmətlər əldə etmək üçün edilən xərclər nəzərdə tutulur. Bu müxtəlif növ sifarişlər, məsələn, dövlət büdcəsi hesabına məktəb, səhiyyə müəəsisələri və mədəniyyət obyektlərinin tikilməsi, idxal məhsullarının alınması, hərbi texnikanın alınması da ola bilər. Bütün bu sifarişlərin əsas fərqli cəhəti istehlakçının dövlətin özü olduğundan ibarətdir. Adətən, dövlət sifarişləri iki növ olur: az və ya çox stabil olan.

Bildiyimiz kimi, Azərbaycan Respublikasında vahid büdcə təsnifatı tətbiq olunur. Azərbaycan Respublikasında vahid büdcə təsnifatı büdcə sisteminə daxil olan büdcələr və büdcə təşkilatları, habelə büdcədənkənar dövlət fondları üzrə

maliyyə əməliyyatların məcmusunu özündə əks etdirir. Qruplaşdırmanın düzgün təşkili və səmərəliliyi büdcə təsnifatı qarşısında qoyulan mühüm tapşırıqlardandır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarına əsasən büdcə təsnifatının strukturu aşağıdakı kimidir:

- dövlət büdcəsi gəlirlərinin təsnifatı;
- dövlət büdcəsi xərclərinin təsnifatı;

a) funksional;

b) iqtisadi;

v) təşkilati;

- dövlət büdcəsinin daxili və xarici maliyyələşmə mənbələrinin təsnifatı. Daxili maliyyələşmə mənbələri vergilərdən və qeyri-vergi ödənişlərindən, xarici maliyyələşmə mənbələri isə beynəlxalq maliyyə təşkilatlarından və xarici ölkələrdən alınan kreditlərdən ibarətdir.
- dövlət daxili və xarici borcunun təsnifatı. Dövlət daxili borcları məqsədli əmanətlərdən, dövlət daxili uduşlu istiqrazlardan, xəzinə öhdəliklərindən, dövlət qiymətli kağızlarından, qısamüddətli istiqrazlardan, xəzinə veksellərindən, əhalinin əmanətlərinin indeksləşdirilməsindən ibarətdir. Dövlət xarici borcları xarici dövlətlərdən və beynəlxalq maliyyə təşkilatlarından alınmış borclardan ibarətdir.
- dövlət büdcəsi xərclərinin təşkilatlar üzrə təsnifatı büdcə vəsaitlərinin əsas sərəncamçılar üzrə bölgüsüdür.

Azərbaycan Respublikasının büdcə sisteminə daxil olan büdcələr və büdcə təşkilatları, habelə büdcədənkənar dövlət fondları üzrə maliyyə əməliyyatlarının müqayisəsini təmin etmək məqsədi ilə Azərbaycan Respublikasında vahid büdcə təsnifatı tətbiq olunur. Büdcə təsnifatı büdcə gəlirlərinin təsnifatından, büdcə xərclərinin funksional, iqtisadi, təşkilati və sair prinsiplər əsasında tərtib olunmuş təsnifatından ibarətdir. Qruplaşdırmanın şəffaflığı və dəqiqliyi büdcə təsnifatı qarşısında qoyulan mühüm tələbdir.

Bazar iqtisadiyyatı şəraitində ölkəmizdə büdcə təsnifatının strukturu aşağıdakı kimidir:

- *Dövlət büdcəsi gəlirlərinin təsnifatı* – qanunvericilik aktlarına uyğun olaraq büdcə sisteminin bütün səviyyəli həlqələrinin gəlirlərinin onların formalaşdırılması mənbələrinə müvafiq olaraq qruplaşdırılmasıdır.

- *Dövlət büdcəsi xərclərinin funksional təsnifatı* - bütün səviyyəli büdcə xərlərinin qruplaşdırılması olmaqla dövlətin əsas funksiyalarının yerinə yetirilməsi məqsədilə büdcə vəsaitlərinin istiqamətlərini əks etdirir.

- *Dövlət büdcəsi xərclərinin iqtisadi təsnifatı* bütün səviyyəli büdcə xərclərinin iqtisadi məzmununa görə qruplaşdırılmasıdır. O, özündə cari və əsaslı xərc maddələrini birləşdirir.

- *Dövlət büdcəsinin daxili və xarici maliyyələşmə mənbələrinin təsnifatı.* Daxili maliyyələşmə mənbələri vergilərdən və qeyri-vergi ödənişlərindən, xarici maliyyələşmə mənbələri isə beynəlxalq maliyyə təşkilatlarından və xarici ölkələrdən alınan kreditlərdən ibarətdir.

- *Dövlət daxili və xarici borcunun təsnifatı.* Dövlət daxili borcları məqsədli əmanətlərdən, dövlət daxili uduşlu istiqrazlardan, xəzinə öhdəliklərindən, dövlət qiymətli kağızlarından, qısamüddətli istiqrazlardan, xəzinə veksellərindən, əhalinin əmanətlərinin indeksləşdirilməsindən ibarətdir. Dövlət xarici borcları xarici dövlətlərdən və beynəlxalq maliyyə təşkilatlarından alınmış borclardan ibarətdir.

**Cədvəl 5: Azərbaycan Respublikasının dövlət büdcəsinin gəlir və xərclərinin cədvəli**

| | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|
| **Gəlirlər-cəmi** | **17498.0** | **17505.7** | **16516.7** | **22508.9** | **24398.5** |
| Fiziki şəxslərin gəlir vergisi | 982.5 | 1145.7 | 1040.3 | 995.9 | 952.1 |
| Hüquqi şəxslərin mənfəət (gəlir) vergisi | 2211.1 | 1983.2 | 2285.9 | 2499.7 | 2546.0 |
| Torpaq vergisi | 48.7 | 50.3 | 50.4 | 50.6 | 50.0 |
| Əmlak vergisi | 148.2 | 174.7 | 178.6 | 182.2 | 212.6 |
| Əlavə dəyər vergisi | 3454.7 | 3623.5 | 3668.6 | 4287.6 | 5185.1 |
| Aksiz vergisi | 647.8 | 625.1 | 612.6 | 728.6 | 854.7 |
| Mədən vergisi | 116.1 | 110.3 | 111.1 | 137.4 | 133.8 |
| Xarici iqtisadi fəaliyyətlə bağlı vergilər | 934.5 | 861.2 | 903.0 | 1143.7 | 1343.2 |
| Digər vergilər | 247.7 | 457.0 | 505.7 | 561.6 | 477.5 |
| Sair daxilolmalar | 8706.7 | 8474.7 | 7160.5 | 11921.6 | 12643.4 |
| **Xərclər-cəmi** | **17784.5** | **17751.3** | **17594.5** | **22731.6** | **24425.9** |
| *o cümlədən:* | | | | | |
| İqtisadiyyata | 6408.8 | 4124.0 | 4394.3 | 7822.7 | 7961.5 |

**Cədvəl 5: Azərbaycan Respublikasının dövlət büdcəsinin gəlir və xərclərinin cədvəli(davamı)**

| | | | | | |
|---|---|---|---|---|---|
| Təhsil | 1605.1 | 1754.4 | 1742.7 | 1966.6 | 2195.7 |
| Səhiyyə | 708.2 | 702.5 | 704.7 | 709.9 | 873.6 |
| Sosial müdafiə və sosial təminat | 1857.2 | 2645.2 | 2350.2 | 2150.7 | 2281.0 |
| Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər kateqoriyalara aid edilməyən sahədə fəaliyyət | 272.4 | 687.4 | 253.3 | 299.5 | 335.8 |
| elmə | 113.2 | 110.2 | 109.8 | 117.8 | 122.3 |
| Məhkəmə hakimiyyəti,hüquq-mühafizə və prokurorluq | 1105.7 | 1117.1 | 1177.6 | 1316.4 | 1505.0 |
| qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanlarının saxlanmasına | 430.9 | 470.1 | 552.2 | 627.4 | 774.5 |
| Sair xərclər | 5283.0 | 6140.4 | 6309.7 | 7720.6 | 8376.5 |

**Mənbə:** https://www.stat.gov.az - Azərbaycan Dövlət Statistika Komitəsinin məlumat bazası əsasında müəllif tərəfindən hazırlanmışdır.

Vergi sistemi iqtisadi inkişafın sabitləşməsinə nail olmaq üçün istifadə olunan ən vacib dövlət iqtisadi tənzimləmə alətlərindən biridir. Dövlət xərcləri və vergiləri birbaşa olaraq məcmu xərclərin səviyyəsinə təsir edərək, həm də milli istehsalın həcmi və əhalinin məşğulluğuna da öz təsirini göstərir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli qərarı Azərbaycan Respublikasının büdcə gəlirlərinin təsnifatı cədvəl 6-də qeyd təsdiq edilmişdir.

**Cədvəl 6: Azərbaycan Resbublikasının büdcəsinin təsnifatı**

| **Kodlar** | | | | | **adlar** |
|---|---|---|---|---|---|
| **bölmə** | **köməkçi bölmə** | **paraqraf** | **maddə** | **yarım maddə** | |
| 1 | 0 | 0 | 0 | 0 | Ümumi gəlir |
| 1 | 1 | 0 | 0 | 0 | Vergi daxilolmaları |
| 1 | 1 | 1 | 0 | 0 | Gəlirlərdən (Mənfəətdən) vergi |
| | | | | | |
| **Bölmə** | | **Köməkçi bölmə** | | **Paraqraf** | **Dövlət xərcləri** |
| 1 | | 0 | | 0 | Ümumi dövlət xidmətləri |
| 1 | | 1 | | 0 | Qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanlarının fəaliyyəti |
| 1 | | 1 | | 1 | Qanunvericilik orqanlarının fəaliyyəti |

**Mənbə:** http://www.maliyye.gov.az/- Azərbaycan Respublikası Maliyyə Nazirliyi məlumatları əsasında tərtib olunub.

Cədvəl 6-a əsasən büdcə sisteminin təsnifatlaşdırılması həyata keçirilir.

İndi isə dövlət xərclərinin azaldılmasının nə ilə nəticələnəcəyini aydınlaşdıraq. Belə azalma makroiqtisadi tarazlığın pozulmasına səbəb olacaqdır.

Dövlət xərcləri multiplikatoru əmtəə və xidmətlərə sərf edilən dövlət xərclərinin artması nəticəsində ÜMM-un artmasını göstərir;

DXM= ÜMM:DXG

**Burada:**

DXM - Dövlət xərclərinin multiplikatoru;

ÜMM - Ümumi Məcmu məhsulun genişləndirilməsi;

DXG - Dövlət xərclərinin genişləndirilməsidir.

Əgər dövlət gəlirləri artırmadan xərclərin səviyyəsini artırırsa, gəlirin artımı baş verir. Yəni, dövlət xərclərinin səviyyəsinin dəyişməsi bu dəyişməyə uyğun olaraq gəlirlərin dəyişməsinə səbəb olur.

Qeyd etmək lazımdır ki, dövlət xərcləri multiplikativ səmərəyə malikdir. İqtisadi baxımdan burada müəyyən qanunauyğunluq var. Həqiqətən də, əgər dövlət xərclərinin artırmaq yolu ilə əmtəələrə əlavə tələb yaradılırsa, bu isə öz növbəsində xərclərin həcminə bərabər səviyyədə ÜMM-un ilkin artımına səbəb olur.

Dövlət xərcləri və investisiyalar kimi vergilər də multiplikativ səmərəyə malikdir. Lakin dövlət xərclərinə nisbətən vergilər məcmu xərclərə daha az təsir göstərirlər. Bunu onunla izah etmək olar ki, dövlət xərcləri məcmu xərclərin tərkib hissəsidir. Burada aşağıdakı vəziyyət yarana bilər:

• dövlət xərclərinin artım tempi vergilərin artımını tələb edir. Bu vergilərin və dövlət xərclərinin məcmu xərclərə müxtəlif təsir göstərmələri ilə izah olunur.

• dövlət vergiləri azaltdıqda onların bir hissəsi istehlaka, digər hissəsi isə əmanətlərə gedir. Bununla da vergi multiplikatorunun dövlət xərcləri multiplikatorundan istehlaka yönümlülük həddi qədər az olması izah olunur.

Büdcə prosesində sistemli islahatların aparılmasının zəruriliyi barədə çox danışılmışdır. Lakin, müxtəlif səbəblər üzündən bu problem həll olunmamış qalır.

Bununla belə, demək olar ki, son illər ərzində büdcə sektorunun yenidən qurulması sahəsində bəzi addımlar atılmışdır. Büdcə prosesinə yenidən yanaşmanın mahiyyəti sadə və aydındır: xərclər naminə xərclər deyil, konkret nəticələrin əldə edilməsi naminə xərclər.

Bu məqsədə çatmaq üçün aşağıdakı əsas vəzifələrin həlli zəruridir:

- büdcə təşkilatları şəbəkəsinin optimallaşdırılması. Bu, büdcə təşkilatlarının yenidən qurulması və maliyyələşdirilməsinin yeni formalarının tətbiqidir. Bu vəzifənin həlli, sözsüz ki, daha mürəkkəbdir və fəaliyyət göstərən büdcə qanunvericiliyində müəyyən yeniliklərin aparılmasını tələb edir. Maliyyə Nazirliyi bu məsələ ilə sistemli olaraq məşğul olmalıdır;
- nəticəyə əsaslanan maliyyələşdirmə metodlarının işlənməsi və istifadəsi.

Yaranan müstəqil dövlətlərin iqtisadiyyatında ÜDM-in azalması, milli təkrar istehsal prosesinin parçalanması, istehsal və maliyyə sistemləri arasındakı əlaqələrin qırılması, əhalinin sosial-iqtisadi vəziyyətinin pisləşməsi məhz bu səbəblərlə izah olunur.

Bazar münasibətlərinin formalaşması yeni sosial-iqtisadi münasibətlərin meydana gəlməsinə səbəb oldu.

Ölkəmizdə iqtisadiyyatın uzunmüddətli inkişaf konsepsiyasının formalaşması zamanı dövlət maliyyəsini təkrar istehsal prosesinin bütün mərhələlərində real iştirak edən həlledici vasitə kimi nəzərdən keçirmək lazımdır.

Dövlət iqtisadi və maliyyə cəhətdən güclü olmalıdır. Dövlət cəmiyyət tərəfindən qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün hakimiyyətin müxtəlif üsullardan istifadə etməlidir.

Dövlət maliyyəsinin müasir vəziyyətini - dövlət borcu üzrə ödəmələri, əmək haqqının artırılması zəruriliyini, mənzil-kommunal təsərrüfatı problemlərinin həllini nəzərə alaraq demək olar ki, bir çox problemlər həll edilməmişdir.

Göstərilən bu problemlərin həlli dövlətin büdcə potensialının formalaşdırılması mexanizmlərinin yeniləşdirilməsi şəraitində mümkündür:

• büdcənin vergi bazasının modernləşdirilməsi;

• kölgə iqtisadiyyatının, korrupsiyanın, kriminalın həcminin azaldılması.

Bu mərhələdə qlobal maliyyə ilə qarşılıqlı əlaqələrin yaradılması sxemi formalaşdırılmalıdır. Dövlət maliyyəsinin qapalı imperativ xarakteri itərək, onun dünya maliyyə bazarına inteqrasiyası güclənir. Bütün bunlar həm uyğunlaşma mexanizminin, həm də dövlət maliyyəsi sahəsində milli maraqların müdafiəsi mexanizmlərinin işlənməsini tələb edir. Büdcə strategiyası konsepsiyasının uzun müddət üçün müəyyənləşdirilməsi çox mürəkkəb məsələdir. Uzunmüddətli maliyyə proqnozlarına rast gəlmək olmur. Bunun maliyyə və büdcə proseslərinin təbiəti ilə əlaqədar bir sıra obyektiv səbəbləri vardır.

Dövlət maliyyə sisteminin və büdcə münasibətlərinin yenidən qurulmasının əsaslarını aşağıdakı prinsiplər təşkil etməlidir:

• maliyyə münasibətlərinin dayanıqlı sisteminin yaradılması;

• yenidənqurulma kompleks xarakter daşımalıdır və maliyyə sisteminin bütün elementləri arasında (maliyyə infrastrukturu, dövlət maliyyəsi, sığorta təşkilatları, pensiya fondları və digər maliyyə institutları) sıx əlaqələri təmin etməlidir;

• resursların məhdudluğu maliyyə resurslarının mərkəzləşdirilməsi prinsipinin istifadəsini zəruri edir;

• maliyyə sisteminin yenidən qurulmasını əsasən daxili mənbələr hesabına həyata keçirilməlidir. Xarici borclar və investisiyalar köməkçi rolunda çıxış etməlidir.

Ölkənin maliyyə sisteminin yenidən qurulmasının əsas mənbələri aşağıdakılar hesab edilə bilər:

• ölkənin, regionların, fiziki və hüquqi şəxslərin pul dövriyyəsinin sağlamlaşdırılması;

• manatın ölkənin daxili pul dövriyyəsində sabitliyinin və ödəmə qabiliyyətliliyinin təmin edilməsi;

• büdcə münasibətlərinin dövlət tənzimlənməsini təmin etmək.

Bazar münasibətləri şəraitində maliyyə sisteminin qarşısında duran əsas məqsədlərə çatmaq üçün bir sıra məsələlər həll edilməlidir:

• ödəmələr və hesablaşmaların bazar mexanizmi yaradılmalıdır;

• ölkənin bütün pul dövriyyəsinin idarə edilməsi və proqnozlaşdırılması təmin edilməlidir;

• büdcə-vergi və pul-kredit siyasətinin həyata keçirilməsi mexanizmi dəyişdirilməlidir;

• bank sistemində islahatlar aparılmalıdır;

• kapitalın qanunsuz olaraq xaricə axınının qarşısını almaq məqsədilə valyuta tənzimləməsi sərtləşdirilməlidir;

• dövlət borcunun tədricən ixtisarı üzrə konkret tədbirlər və vahid məqsədli proqram işlənməlidir.

Dayanıqlı iqtisadi artımın bərqərar olması və maliyyə sistemində struktur dəyişiklikləri probleminin həlli büdcə siyasətində islahatların aparılmasını tələb edir.

Büdcə sisteminin yenidən qurulmasında gözlənilən səmərəni əldə etmək üçün aşağıdakı istiqamətlərdə əlavə tədbirlərin həyata keçirilməsi zəruridir:

• dövlət borcunun maliyyələşdirilməsi mexanizminin təkmilləşdirilməsi;

• vergiyə cəlb olunmanı və vergi inzibatçılığını əhatə edən vergi mexanizminin sistemli şəkildə yenidən qurulması;

• dövlət proqramları ilə qəbul edilmiş və əvvəlcədən müəyyənləşdirilmiş nəticələrə nail olmaq üçün büdcə vəsaitlərindən istifadənin səmərəliliyinin yüksəldilməsi;

• büdcə sisteminin bütün həlqələri arasında büdcələrarası münasibətlərinin yeni mexanizminin tətbiq edilməsi;

•büdcə prosesinin təşkili sahəsində ardıcıl olaraq yeniliklərin həyata keçirilməsi.

Azərbaycan Respublikasının büdcə sisteminə daxil olan bütün səviyyəli büdcələr büdcələrarası münasibətlər çərçivəsində qarşılıqlı əlaqədədirlər.

Beləliklə qeyd edək ki, fiskal siyasət olduqca mürəkkəb və geniş tədbirlər kompleksini əhatə edir. Məhz bu baxımdan ölkəmizdə fiskal siyasətin ümumi konsepsiyasının işlənməsi, adekvat maliyyə mexanizminin yaradılması və digər iqtisadi subyektlərin maliyyə fəaliyyətinin idarə edilməsi iqtisadi zərurətdir. Bu

baxımdan Azərbaycan Respublikasında fiskal siyasətin idarə edilməsində proqnozlaşdırma, planlaşdırma, operativ idarəetmə, tənzimləmə və nəzarət funksiyalarında geniş şəkildə istifadə edilməlidir.

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

Ümumiyyətlə, hər bir ölkənin optimal fiskal siyasətinin həyata keçirilməsi prioritet iqtisadi-siyasi məsələlərdəndir. Bu zaman iqtisadi islahatların həyata keçirilməsi qismində vergi dərəcələrinin dəyişməsinin sahibkarlıq mühitinə, büdcə xərclərindəki dəyişikliklərin ölkə iqtisadiyyatında inflyasiyaya və faiz dərəcələrinə, büdcə kəsirinin isə makroiqtisadi tarazlığa təsirini nəzərə almaqla icra edilməlidir.

Dövlət büdcəsinin, o cümlədən məqsədli büdcə fondlarının vəsaitlərinin xərclənməsi, habelə büdcə təşkilatlarının büdcədənkənar əməliyyatlar üzrə vəsaitlərinin əldə edilməsi və xərclənməsi üzərində dövlət maliyyə nəzarətinin, dövlət zəmanəti ilə alınmış və dövlət büdcəsinin vəsaiti hesabına verilmiş kreditlərin xərclənməsi üzərində dövlət maliyyə nəzarətinin həyata keçirilməsi, Azərbaycan Respublikasında dövlət maliyyə nəzarətinin həyata keçirilməsi işinə metodiki rəhbərlik edilməsi, bu sahədə mövcud olan nöqsanları və neqativ halları doğuran səbəblərin aradan qaldırılması məqsədilə mütəmadi tədbirlər görülməsi, qanunvericiliklə müəyyən edilmiş digərləri xidmətin fəaliyyət istiqamətləridir.

Qeyd edilənləri nəzərə alaraq aşağıdakı istiqamətdə fəaliyyətin təmin edilməsi məqsədəmüvafiq hesab edilir:

**1.** Bildiyimiz kimi, dövlət fiskal siyasət vasitəsi ilə ölkədə gedən iqtisadi proseslərə müdaxilə edir və onların tənzimlənməsini həyata keçirir. Fikrimizcə, dövlət büdcəsinin gəlir hissəsinin sistemli olaraq formalaşdırılması məqsədilə aşağıdakı istiqamətdə tədbirlərin həyata keçirilməsi zəruridir:

- dayanıqlı iqtisadi inkişaf istiqamətində;
- milli iqtisadiyyatın səmərəliliyinin artırılması istiqamətində;
- iqtisadi artıma nail olunması istiqamətində;
- əhalinin məşğulluq səviyyəsinin artırılması istiqamətində;
- vergitutmanın səmərəli tətbiqi sahəsində;
- pul dövriyyəsinin sabitləşdirilməsi istiqamətində.

2. Bildiyimiz kimi, Azərbaycan Respublikasının maliyyə sistemi dövlət maliyyəsi və müəssisələrin maliyyəsindən ibarətdir. Fiskal siyasət dövlət maliyyəsinin sabit iqtisadi artımın təmin edilməsində əhəmiyyətli rol oynayır.

Azərbaycan Respublikasında dövlətin həyata keçirdiyi fiskal siyasət aşağıdakı ictimai məqsədlərə cavab verməlidir:

- iqtisadiyyatda dövri tərəddüdlərin hamarlaşdırılması;
- iqtisadi artım sürətinin yüksəldilməsi;
- əhalinin tam məşğulluğuna nail olunması;
- inflyasiyanın mülayim sürətinə nail olunması.

Azərbaycan Respublikasında fiskal siyasətin əsas alətləri aşağıdakılardan ibarətdir:

- müxtəlif növ vergilər;
- transfer və digər ödənişlər.

Dünya təcrübəsi göstərir ki, fiskal siyasətin alətləri hər bir dövlətin iqtisadiyyatına müxtəlif cür təsir göstərirlər. Dövlət satınalmaları dövlətin məcmu xərclərinin əsas elementlərindən biridir və onlar xərclərin səviyyəsinin artmasına səbəb olur.

Təbii ki, burada hər bir dövlətin gəlirləri müxtəlifdir. Bu zaman dövlətlərin təbii sərvətləri də xüsusi rol oynayır. Təbii sərvətlərdən əldə olunan gəlirlər transfer rolunu oynayır.

3.Azərbaycan Respublikasının apardığı iqtisadi siyasət hərtərəfli və konseptual əsaslarla həyata keçirilir. Dünyada belə bir anlayış mövcuddur ki, siyasət iqtisadiyyatdan törəyir. Yəni, iqtisadiyyat bazisdirsə, siyasət onun üst qurumunu formalaşdırır.

Məlum olduğu kimi, fiskal siyasət olduqca mürəkkəb və geniş tədbirlər kompleksini əhatə edir. Azərbaycan Respublikasında da aşağıdakı tədbir planının həyata keçirilməsi məqsədəuyğundur:

- Fiskal siyasətin ümumi konsepsiyasının işlənməsi;
- Adekvat maliyyə mexanizminin yaradılması;
- Dövlətin və digər iqtisadi subyektlərin maliyyə fəaliyyətinin idarə edilməsi.

Azərbaycan Respublikasında fiskal siyasətin idarə edilməsi bir sıra funksional elementləri özündə əks etdirir:

- proqnozlaşdırma;

- planlaşdırma;

- operativ idarəetmə;

- tənzimləmə və nəzarət.

Azərbaycan Respublikasında fiskal siyasəti aşağıdakı vəzifələri həyata keçirməlidir:

- maksimal mümkün maliyyə resursları formalaşdırmaq üçün şərtlərin təmin edilməsi;

- maliyyə resurslarının istifadəsinin və bölgüsünün təşkili;

- maliyyə metodları ilə iqtisadi və sosial proseslərin tənzimlənməsinin təşkili;

- dəyişən məqsədlərə və strategiyaya görə maliyyə mexanizminin işlənməsi;

- maliyyənin idarə edilməsində effektiv və maksimal iş sisteminin yaradılması.

4. Azərbaycan Respublikası öz fiskal siyasətini təşkil edərkən aşağıdakı prinsiplərə riayət etməlidir:

- sərbəstlik prinsipi.

- dövlətin iqtisadiyyatına müdaxiləsi prinsipi.

- dövlətin gəlir və xərclərinin balanslaşdırılması, maliyyə ehtiyatlarının yaradılması prinsipi.

5. Fiskal siyasətin əsas istiqamətləri aşağıdakılar aid etmək olar:

- maliyyənin idarə olunmasının tam müstəqil və mükəmməl hala gətirmək.

- bütün mülkiyyət formalarının təmin edilməsi.

- fiskal siyasətin ETT-nin inkişafına yönəldilməsi.

- maliyyə-kredit, pul bazarının, fond birjalarının yaradılması üzrə işlərin apanlması.

- azad sahibkarlığın dəstəklənməsi, kiçik biznesin inkişafı, investisiyaların artırılması və s.

Fiskal siyasətin sosial siyasətlə uzlaşdırılması, sosial xərclərin artırılması və s. Fiskal siyasətin hazırlanmasında bütün resurslar informasiya, kadr, maliyyə və s. nəzərə alınmalıdır. Fiskal siyasət iqtisadi siyasət kimi elmi cəhətdən

əsaslandırılmalıdır. Elmi cəhətdən əsaslandırılmış fiskal siyasət real olur və dövlətə mövcud vəziyyətlə ayaqlaşma imkanı verir.

## İstifadə olunmuş ədəbiyyat siyahısı

### Azərbaycan dilində


1. Azərbaycanın statistik göstəriciləri Bakı: «Səda» nəşriyyatı. 2019, 840 s.

2. Azərbaycan Respublikasının Vergi Məcəlləsi. Bakı: 2019, 292 s.

3. Azərbaycan Respublikasının 2015-ci il Dövlət Büdcəsinin zərfi. Milli Məclisə

təqdim olunan materiallar. I-IV cildlər. Milli Məclisin müzakirələri üçün nəşri, 2015-ci il.

4. Bədəlov Ş.Ş., Məhərrəmov R.B., Qurbanov F.Ə. "Büdcə sistemi" -2003, Bakı: Əbilov, Zeynalov və oğulları, 417 s.
5. Kəlbiyev.Y.A. "Vergi siyasətinin konseptual əsasları və praktiki əsasları". Bakı-2012, "İqtisad Universiteti" Nəşriyyatı, 488 s.
6. Kəlbiyev Y.A. Fiskal siyasət və milli iqtisadiyyatın tənzimlənməsi problemləri. Bakı -2005, Monoqrafiya, 468 s.
7. Musayev A. F., Bakı: 2004, Vergi siyasətinin iqtisadi problemləri, 792 s.
8. Məmmədov F.Ə., Musayev A.F., Sadıqov M.M., Kəlbiyev Y.A., Rzayev Z.H., "Vergilər və Vergitutma". Bakı-2010, CBS Poligraphic production, 512 s.
9. Novruzov N A., Hüseynov X.Ə., "Maliyyə", Bakı -2007. Kooperasiya nəşriyyatı, 464 s.
10. Sosial- iqtisadi inkişaf problemləri: təcrübə, meyllər və perspektiv istiqamətlər". Bakı -2005, "Adiloğlu" nəşriyyatı , 538 s.
11. Rzayev Z.H. və başqaları. Bakı - 2008. İqtisadi tərəqqi və vergi siyasəti, 272 s.
12. Rzayev Z.H. "Vergi menecmenti. Bakı- 2007, 324 s.

**Türk dilində**

13. Prof. Doc. Cihan Pulut, Elçin Süleymanov "Dövlət Maliyyəsi", Bakı - 2013, Qafqaz Universiteti Nəşri, 331 s.
14. Coşkun Can Aktan, "Arz-Yanlı İktisat ve Haldun-Laffer Etkisi", Bakı-2013, Qafqaz Universiteti Nəşri, 138 s.
15. Rıdvan Karluk "Uluslararası Ekonomi", İstanbul – 1998, 908 s.
16. Sandıkcı M. "İşletmelerde kar payı dağıtım politikaları ve finansal performans üzerine etkileri", Konya-2014, 364 s.
17. Doç. dr. Saraç M. "Finansal yönetim", İstanbul -2014.
18. Sayım F., Oruç S. "Finansal sistemin yapısı ve finansal piyasaların işleyişi" web-makale.
19. Prof. Dr. Şanvere Armağan, Maliye Araştırma ve Uygulama Merkezi, İstanbul

-1998, Yayın No:10, Marmara Üniversitesi.

**İngilis dilində**

20.Dominick Salvatore, International Economics, 5th Edition, Prentice Hall, New York, 1995.

21. Richard Lipsey-Alec Chrysal, Principles of Economics, 9th Edition, Oxford University Press, New York, 1999.

22. Fred H. Gowen "Is Supply-Side Economics Enough" Monetary Theory and Monetary Policy, Edited by Thomas Lys, United Kingdom, Edward Elgar Publishing Ltd. 1997,

23.Thomas F. Dernburg, "Makroiktisat ve Açık Ekonomi Makroiktisadı", İktisatça, Çev. Yahya S. Tezel, Kış 1995, s. 25.

**Rus dilində**

24. Авдокушин Е.Ф. Международные экономические отношения.-М., Финансы и статистика, 2003.

25. Балацкий Е. Лафферовы эффекты и финансовые критерии экономической деятельности. МЭиМО. 1997. № 11.

26. Боровиков В.И. Денежное обращение, кредит и финансы. - М.: Центр, 2002.

27.Брызгалина А.В. Налоги и налоговое право: Учеб.пособие. М-2009, «Аналитика Пресс».

28. Буглай В.Б., Ливенцев Н.Н., «Финансы и статистика», Международные экономические отношения. Москва – 2003.

29.Бункина М.К., Семенов В.А. Макроэкономика: Учеб. Москва-2007, Издательство «ДИС», ст 649.

30. Иохин В.Я. «Экономическая теория», Москва-2008, Юристъ, 861 с.

31. Глазьев С. Перспективы социально-экономического развития России. Экономист. Москва – 2009, №1, ст 32.

32. И.П.Николаевой, Кадыковой/ М., «Политическая литература и единство», Москва-2001, ЮНИТИ дена, Из-до., 822 с.

## İnternet resursları

34. www.chamber.az - Azərbaycan Ticarət və Sənaye Palatası

35.www.imf.org - IMF - Beynəlxalq Valyuta Fondu. (ingilis dilində)

36.http://fincan.ru/articles/15_gosdolg-stran-mira-2018/

37.http://www.worldoil.com.Dünya bankı

38. stat.gov.az

39. www.taxes.gov.az

40. www.finanse.gov.az

41.www.nba.az

## Sxemlərin siyahısı

**Sxem 1:** Azərbaycan Respublikasında dövlət maliyyəsinin təşkili....................35

**Sxem 2:** Dövlət maliyyəsinin planlaşdırılmasının vəzifələri...............................38

**Sxem 3:**Azərbaycan Respublikası Maliyyə Nazirliyinin həyata keçirdiyi vəzifələr..........................................................................................................39

**Sxem 4:** Dövlət maliyyəsinin təşkilində fiskal siyasətin normativ-hüquqi bazasını həyata keçirən qurumlar....................................................................................44

## Cədvəllərin siyahısı

**Cədvəl 1:** Ümumi daxili məhsulun strukturunda dövlət maliyyəsinin təşkilində fiskal siyasət..........................................................................................................41

**Cədvəl 2**: Dövlət büdcəsinin gəlirləri mədaxil mənbələri üzrə.............................46

**Cədvəl 3:** Fiskal siyasətin məzmunu...................................................................62

**Cədvəl 4:** Azərbaycan iqtisadiyyatının əsas makroiqtisadi göstəricilər..................64

**Cədvəl 5:** Azərbaycan Respublikasının dövlət büdcəsinin gəlir və xərclərinin cədvəli..........................................................................................................69

**Cədvəl 5:** Azərbaycan Respublikasının dövlət büdcəsinin gəlir və xərclərinin cədvəli(davamı)..........................................................................................70

**Cədvəl 6:** Azərbaycan Resbublikasının büdcəsinin təsnifatı............................ 70

## Şəkillərin siyahısı

**Şəkil 1:**2018-ci il üzrə dövlət büdcəsi gəlirlərinin strukturu,ümumi yekunda xüsusi çəkisi %-lə.........................................................................................................47